**AZƏRBAYCAN RESPUBLİKASI**
**TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NAZİM TƏLƏT oğlu ƏLİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASINDA REGİONAL CİNAYƏTKARLIĞIN TƏDQİQİ, PROQNOZLAŞDIRILMASI VƏ QARŞISININ ALINMASI PROBLEMLƏRİ

İxtisas: 5611.01 – Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ

**Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı - 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun “Cinayət hüququ və cinayət prosesi” şöbəsində yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** hüquq üzrə elmlər doktoru, professor
**Xanlar Cəfərbala oğlu Ələkbərov**

hüquq üzrə elmlər doktoru, professor
**Samir Əhməd oğlu Vəliyev**

hüquq üzrə elmlər doktoru
**Nazim Kazım oğlu Əliyev**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzi**

Dissertasiya işinin müdafiəsi “____” “____________” 2017-ci il tarixdə saat “____” Bakı Dövlət Universiteti nəzdində yaradılmış Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” “_________” 2017-ci il tarixdə göndərilmişdir.

**Birdəfəlik dissertasiya şurasının elmi katibi,**
**hüquq üzrə fəlsəfə doktoru, dosent:** **Ə.Q.MƏMMƏDOV**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Yeni inkişaf mərhələsinə, siyasi sabitlik, iqtisadi yüksəliş və sosial rifah dövrünə qədəm qoyan müstəqil Azərbaycan Respublikasının qarşısında duran ümdə vəzifələrdən biri də cinayətkarlıqla, o cümlədən regional cinayətkarlıqla mübarizənin gücləndirilməsi, kriminal əməllərin qarşısının alınmasının elmi zəmin əsasında təşkili, sosial nəzarət orqanlarının bu sahədə fəaliyyətlərinin səmərəliliyinin artırılmasıdır.

Yeni sosial-iqtisadi və hüquqi münasibətlər şəraitində, qloballaşan dünyada cinayətkarlığın, onun ən təhlükəli növlərinin və formalarının vəziyyəti, strukturu və dinamikasında kəmiyyət və keyfiyyət xarakterli neqativ dəyişmələr baş vermiş, cinayətkarların peşəkarlıq səviyyələri xeyli artmış, kriminal fəaliyyətdə elm və texnikanın son nailiyyətlərindən, müasir texnologiyalardan, telekommunikasiya vasitələrindən, kompyuter-informasiya sistemlərindən və onların şəbəkələrindən geniş istifadə edilməyə başlanmışdır. Bütün bunlar isə cinayətkarlıqla, o cümlədən regional cinayətkarlıqla mübarizənin təşkilati-hüquqi, elmi-metodiki əsaslarının yaradılmasında kriminoloji biliklərdən daha geniş və hərtərəfli şəkildə istifadə edilməsi zəruriliyini şərtləndirir.

Mövcud kriminogen şərait hüquq-mühafizə orqanlarının cinayətkarlıqla mübarizə üzrə fəaliyyətində müasir üsulların, metodların və vasitələrin tətbiqini, yaranmış problemlərin həllinə adekvat yanaşmaların işlənib hazırlanmasını tələb edir. Cinayətkarlığın regional səviyyədə kriminoloji tədqiqi, proqnozlaşdırılması və profilaktikası belə yanaşmalardan hesab edilə bilər.

Regional cinayətkarlığın gələcək vəziyyəti, onun struktur və dinamikasını, sosial-iqtisadi, demoqrafik, coğrafi, təşkilati, texniki və s. xarakterli amillərdən, şəraitlərdən irəli gələn səbəbiyyət kompleksini adekvat əks etdirən kriminoloji proqnozlaşdırmanın aparılması və bu əsasda proqnozların qurulması cinayətkarlıqla mübarizəni strateji bazasını möhkəmləndirir, Azərbaycanın regionlarında, iqtisadi rayonlarında və şəhərlərində mövcud spesifik xüsusiyyətləri nəzərə almaqla cinayətkarlıq və onun ayrı-ayrı ən təhlükəli növləri və formaları ilə effektiv mübarizəni təşkil etməyə imkan verir. Azərbaycanın hər bir iqtisadi rayonunda, böyük şəhərlərində cinayətkarlığı və onun ayrı-ayrı növlərini determinə edən amillər kompleksinin sistemli şəkildə öyrənilməli, kriminogen və antikriminogen amillər qrupunun müəyyən edilməli və bu əsasda cinayətkarlığa qarşıdurma üzrə elmi cəhətdən əsaslandırılmış ümumsosial və xüsusi-kriminoloji tədbirlər işlənib hazırlanmalı, regional cinayətkarlığın proqnozlaşdırılması və profilaktikası üzrə kompleks regional proqramlar, fəaliyyət planları, strategiyalar, konsepsiyalar hazırlanmalı və həyata keçirilməlidir.

Qloballaşma dövründə bütün dövrlərdə, məkan və zaman hüdudlarında cəmiyyət üçün müəyyən sosial, iqtisadi və sair xarakterli problemlər doğuran

cinayətkarlıq da qloballaşmış və transmilliləşmiş, mürəkkəb, çoxaspektli çalarlar daşıyan, dövlət, cəmiyyət və vətəndaş üçün böyük təhlükə kəsb edən ən ciddi sosial-hüquqi problemlərdən birinə çevrilmişdir. Eyni zamanda cinayətkarlıq özünün regional xüsusiyyətlərini də itirməmişdir. Kriminoloji tədqiqatlar və təhlillər cinayətkarlıq və onunla bağlı kriminoloji şərait ayrı-ayrı regionlar səviyyəsində fərqləndiyini və bu fərqlərin inzibati-ərazi vahidlərinin, ərazi birliklərinin iqtisadi, sosial, demoqrafik, mədəni, coğrafi və digər aspektlərinin inkişafı səviyyəsindən və xüsusiyyətlərindən irəli gəldiyini göstərir.

Sosial davranış növü kimi cinayətkarlıq «coğrafilik» xassəsinə malikdir və insanları əhatə edən coğrafi, sosial, iqtisadi, demoqrafik, mədəni və s. şəraitlərlə bağlıdır.

Müxtəlif inzibati-ərazi vahidləri, iqtisadi rayonlar və şəhərlər çərçivəsində cinayətkarlığı və onu şərtləndirən hadisələri sistemli şəkildə, kriminoloji baxımdan öyrənilməsi, regional səviyyədə cinayətkarlığın və onun struktur elementləri, alt sistemləri olan ayrı-ayrı cinayət növlərinin qarşısının alınması və profilaktikası üzrə ümumsosial və xüsusi-kriminoloji tədbirlər kompleksinin işlənib hazırlanması üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, cinayətkarlığın ərazi qeyri-bircinsliyi kimi spesifik xassəsi konkret inzibati-ərazi vahidində cinayətkarlıqla mübarizənin təşkili zamanı hökmən nəzərə alınmalıdır. Çünki əks təqdirdə cinayətkarlıqla mübarizə sahəsində reallaşdırılan tədbirlər səmərəsiz olacaqdır.

Belə yanaşmanın reallaşdırılmasının mühüm təşkilati formalarından biri cinayətkarlıqla mübarizənin gücləndirilməsinə istiqamətlənməklə proqram-məqsədli idarəetmə metodologiyasına və texnologiyasına əsaslanan kompleks regional proqramların, fəaliyyət planlarının, konsepsiyaların, strategiyaların işlənib hazırlanması və həyata keçirilməsindən ibarətdir.

Cinayətkarlığın ən təhlükəli forma və növləri ilə mübarizə, regional cinayətkarlığın kriminoloji profilaktikası mütləq şəkildə elmi cəhətdən əsaslandırılmış konsepsiya və strategiya əsasında həyata keçirilməli, bu sahədə uyğun kriminoloji siyasət işlənilməli, elmi-nəzəri, metodoloji baza yaradılmalıdır. Bu zaman statistika, sosiologiya, psixologiya, kibernetika, informasiya nəzəriyyəsi və digər elmlərin mövcud potensialından istifadə edilməsi zəruridir. Eyni zamanda o da aydındır ki, məhz kriminoloji biliklər əsasında cinayətkarlıqla, o cümlədən regional cinayətkarlıqla mübarizənin düzgün təşkili və profilaktik fəaliyyətin ən effektiv şəkildə idarə edilməsi mümkündür.

Qeyd olunanlar cinayətkarlığın regional kəmiyyət-keyfiyyət parametrlərinin dərin, hərtərəfli və sistemli kriminoloji analizinin zəruriliyini və aktuallığını göstərir. Təəssüf ki, problemin kriminoloji idrakı, elmi-nəzəri və praktiki aspektlərdən tədqiqi səviyyəsi onun real əhəmiyyətinə uyğun gəlmir. Bu isə regionlarda, ayrı-ayrı iqtisadi rayonlarda, habelə ölkənin böyük

şəhərlərində cinayətkarlığın qarşısının alınması üzrə praktiki fəaliyyətə və bütövlükdə cinayətkarlıqla mübarizə nəticələrinə mənfi təsir göstərir. Hazırda sosial nəzarət orqanlarının sərəncamında cinayətlərin regional profilaktikası sisteminin təşkili üzrə elmi cəhətdən əsaslandırılmış konseptual, sistemli-struktur yanaşma, təkmil metodologiya, elmi-metodiki baza, konkret təkliflər və tövsiyələr kompleksi yoxdur. Bu sahədə kriminoloji siyasət işlənilməyib. Regionlarda həyata keçirilən profilaktik tədbirlər hər bir ərazi-inzibati vahidin, iqtisadi rayonların, şəhərlərin, kənd rayonları üçün spesifik olan sosial-iqtisadi, demoqrafik, təbii-coğrafi şəraitlər nəzərə alınmadan həyata keçirilir. Bu da bir sıra hallarda görülən kompleks tədbirlərin gözlənilən effekt verməməsinə gətirir. Bütün bunlar isə məcmu halda tədqiqatın aktuallığını şərtləndirir.

**Problemin elmi işlənilmə səviyyəsi.** Çoxaspektli mürəkkəb sosial-hüquqi hadisə kimi cinayətkarlığın analizi sosioloji, iqtisadi, psixoloji, kriminoloji, kriminalistik, hüquqi və digər elmi-nəzəri və metodiki yanaşmaların tətbiqini, ən müxtəlif elmlərin potensialından maksimum istifadəni tələb edir. Qeyd etmək lazımdır ki, hüquqşünas-alimlər cinayətkarlıq və onunla mübarizə probleminə həmişə böyük diqqət göstərmişlər. Bu sosial-hüquqi fenomeninin tədqiqinə əhəmiyyətli töhfəni M.M.Babayev, S.V.Borodin, K.K.Qoryainov, Y.İ.Qilinski, A.İ.Dolqova, İ.İ.Karpets, M.P.Kleymenov, V.N.Kudryavtsev, D.A.Li, E.E.Raska, V.V.Luneyev, Q.M.Minkovski, V.E.Eminov, V.S.Ovçinski, A.B.Saxarov, A.M.Yakovlev, S.V.Borodin, Q.İ.Zabryanski, S.M.İnşakov, Y.D.Bluvşteyn, V.Djatiyev, S.M.Qolik, E.O.Alauxanov, E.Bafiya, Q.Şnayder, V.Foks və digərləri vermişlər. Onların əsərlərində cinayətkarlığın səbəb-nəticə kompleksinin tədqiqinin nəzəri-metodoloji əsasları işlənilmişdir.

Cinayətkarlığın regional, ərazi-coğrafi xüsusiyyətləri – kriminoloqların daima diqqətini cəlb edən problemlərdəndir. Kriminoloqlar, cinayətkarlığın elmi-nəzəri tədqiqinə regional yanaşmanın zəruriliyini göstərərək onun praktiki əhəmiyyətini – əldə edilmiş məlumatlar nəzərə alınmaqla cinayətkarlıqla differensiallaşdırılmış mübarizənin mümkünlüyünü xüsusi olaraq qeyd edirlər.

XX əsrin 60-80-cı illərində M.M.Babayev, V.N.Kudryavtsev, N.F.Kuznetsova, A.B.Saxarov, A.İ.Dolqova və digər tanınmış kriminoloqlar tərəfindən ayrı-ayrı sosial faktorların cinayətkarlığa təsirinin nəzəri və metodoloji məsələləri araşdırılaraq öyrənilmiş, urbanizasiya, miqrasiya prosesləri, əhalinin yaş-cins və sosial-peşə strukturları, yaşayış məntəqələrinin tipi, onlarda məskunlaşma dərəcəsi, mövcud sosial mühit və digər amillərlə cinayətkarlıq arasında müəyyən korrelyasion asılılığın mövcudluğu müəyyən olunmuşdur. Məhz bu alimlər tərəfindən kriminologiya elmində yeni istiqamətin - cinayətkarlığın öyrənilməsinə ərazi-coğrafi, regional yanaşmanın əsası qoyulmuşdur.

Böyük şəhərlərdə, kənd yerlərində cinayətkarlıq haqqında əhəmiyyətli empirik materialları ümumiləşdirən A.A.Yanauskas, İ.P.Partnov, E.E.Raska, A.A.Qabiani və digərləri də bu istiqamətin inkişafına öz töhfələrini vermişlər.

Regional cinayətkarlıq məsələlərinə bir sıra kriminoloqlar müraciət etmiş, cinayətkarlığın coğrafiyası; şəhərlərdə, kənd yerlərində, ayrı-ayrı inzibati-ərazi vahidlərində cinayətkarlığın ərazi fərqləri, onların yaranma səbəbləri və s. kriminoloji problemlər S.V.Artemenko, A.V.Borbat, V.İ.Qladkix, L.V.Kondratyuk, T.B.Ramazanov, K.T.Rostov, Q.X.Şabanov, A.A.Qabiani, R.Q.Qaçeçiladze, S.P.Luknitski, Q.Y.Şnayder və başqaları tərəfindən araşdırılmışdır.

Y.E.Avrutin, Y.İ.Qilinski, Q.İ.Zabryanski, Q.M.Minkovski və digər kriminoloqlar isə regionların kriminoloji təsnifatının qurulmasına istiqamətlənmiş tədqiqatlar aparmış, belə bir təsnifatların hüquq-mühafizə orqanlarının regional cinayətkarlıqla mübarizəyə istiqamətlənən fəaliyyətinin effektivliyinin təminində önəmli rol oynayacağını göstərmişlər.

Demoqrafik proseslər, sosial şəraitlər və cinayətkarlığın ərazi fərqləri problemləri M.M.Babayev, A.İ.Dolqova tərəfindən tədqiq edilmişdir; müqayisəli-regional istiqamət K.T.Rostov və digərlərinin elmi əsərlərində əks olunmuşdur; regional cinayətkarlığın xüsusiyyətlərinin ərazi – coğrafi şərtlənməsi – A.F.Sokolovun əsərləri, cinayətkarlığın ərazi fərqlərinin öyrənilməsinə diferensiallaşmış yanaşma E.B.Akayevin işləri üçün xarakterikdir.

Konkret ərazi vahidində cinayətkarlığı determinə edən amillər kompleksi, regional cinayətkarlığın vəziyyəti, strukturu və dinamikası, V.V.Sosnovski, V.İ.Şulqa, Y.E.Avrutin, M.M.Babayev, A.İ.Qabiani, V.İ.Qladkix, A.A.Qabiani, R.Q.Qaçeçiladze, Y.İ.Qilinski, K.K.Qoryainov, A.İ.Dolqova, Q.İ.Zabryanski, L.V.Kondratyuk, V.V.Luneyev, E.E.Raska, V.N.Somin kimi alimlər tərəfindən müxtəlif tip regionlarda cinayətkarlığın qarşısının alınmasının nəzəri və tətbiqi problemləri tədqiq edilmiş və bir sıra əhəmiyyətli nəticələr əldə edilmişdir.

Son illərdə cinayətkarlığın kompleks coğrafi-kriminoloji analizinə və regional səviyyədə cinayətkarlığın qarşısının alınmasının əsas istiqamətlərinin müəyyən edilməsinə həsr olunmuş xüsusi elmi tədqiqatlar aparılmış, dissertasiya işləri yazılmışdır. Məsələn, regional cinayətkarlıqla bağlı kriminoloji və cinayət-hüquqi problemlər K.T.Rostov, K.R.Abızov, V.V.Sosnovski, A.V.Kornienko, V.N.Kanıqin, Q.N.Suslova, B.V.Baranov, D.E.Vaniçkin, A.A.Muxin və digərlərinin dissertasiya işlərində araşdırılmışdır.

Regional cinayətkarlıq A.D.Badov, S.P.Luknitski, S.V.Artamenko kimi coğrafiyaşünas-alimlər tərəfindən dissertasiya tədqiqatı səviyyəsində tədqiq edilmişdir. Sosiologiya və iqtisadiyyat kimi elmlərin nümayəndələri tərəfindən də regional cinayətkarlıq və onunla bağlı problemlər araşdırılmışdır. Belə

monoqrafik tədqiqatlar V.V.Şavırov, L.A.Voloşina, M.A.Şibayeva, Y.A.Tokarev, F.R.Xəlilova və digərləri tərəfindən həyata keçirilmişdir.

Konkret inzibati-ərazi vahidlərində, xüsusi halda şəhərlərdə, şəhər küçələrində və kənd yerlərində cinayətkarlığın xarakteristikası və profilaktikası məsələləri dissertasiya səviyyəsində V.A.Berzin, A.N.Qrişin, M.V.Şmarenkov, Y.V.Kiviç, D.V.Borovkov, V.İ.Varenko, A.B.Vasilyev, R.Z.Vəzirov,V.İ.Qladkix M.S.Qutsariyev, E.S.Zaremba V,A.Kuzyulin, A.F.Sokolov, E.A.Şuklina tərəfindən tədqiq edilmişdir.

Cinayətkarlığın mövcudluğunun sosial-iqtisadi və digər ilkin şərtlərinin formalaşması kontekstində regionların tədqiqi problemi regional iqtisadiyyat, sosiologiya və sosial-iqtisadi coğrafiya sahəsində mütəxəssislərin əsərlərində işıqlandırılmışdır. Onların sırasında E.B.Alayev xüsusi olaraq qeyd edilməlidir. Qeyd olunan müəlliflərin elmi əsərləri sözsüz ki, regional cinayətkarlıq probleminin mahiyyət və məzmununun anlamına əhəmiyyətli töhfə vermiş, cinayətkarlığın regional problemləri üzrə elmi-nəzəri biliklərin sərhədlərini əhəmiyyətli dərəcədə genişləndirmişdir. Problemin bütün mühümlüyünə rəğmən, Azərbaycanın iqtisadi rayonlarında, böyük şəhərlərində cinayətkarlığın proqnozlaşdırılması və profilaktikası məsələləri yalnız bəzi elmi məqalələr səviyyəsində araşdırılmışdır. Son dövrlərdə Azərbaycan Respublikasında regional cinayətkarlığın kriminoloji xarakteristikası və qarşısının alınmasına həsr olunmuş xüsusi tədqiqatlar aparılmayıb.

Cinayətkarlığın regional kriminoloji analizinin metodologiyası, elmi-nəzəri və metodiki əsasları hələ ki, tam dərəcədə işlənilməyib. Bu problemin nəzəri aspektləri fraqmentar işıqlandırılmışdır. Regional cinayətkarlığın səbəb-nəticə kompleksinin, onun əsas cəhətlərinin və xarakteristikalarının üzə çıxarılması, həmçinin konkret ərazi-coğrafi şəraitlər nəzərə alınmaqla profilaktik tədbirlər kompleksinin formalaşdırılması üzrə metodologiya işlənilməyib.

Proqnozlaşdırma məsələləri üzrə müəyyən sayda tədqiqatların olmasına baxmayaraq, onlarda regional səviyyədə cinayətkarlığın proqnozlaşdırılmasına diqqət yetirilməmiş, proqnozların formalaşmasının regional aspektləri səthi şəkildə nəzərdən keçirilmiş, regionlararası qarşılıqlı əlaqə və asılılıqlar kontekstində proqnozların işlənib hazırlanmasına həsr olunmuş tədqiqatlar aparılmamışdır. Halbuki, Azərbaycanın bir sıra regionlarında sosial, iqtisadi, etnik, mənəvi-psixoloji, coğrafi və s. kimi parametrlərdə əhəmiyyətli fərqlər mövcuddur ki, bu da ümumən cinayətkarlığın proqnozlaşdırılmasında regional fərqlərin nəzərə alınmasını tələb edir. cinayətkarlıqla mübarizənin elmi zəmin əsasında həyata keçirilməsinə imkan verən elmi əsaslı proqnozların qurulmasına lazımi səviyyədə diqqət yetirilməmiş, belə proqnozlar demək olar ki, işlənib hazırlanmamışdır.

İstisna kimi hüquq elmləri doktoru A.M.Cəfərovun apardığı tədqiqatları göstərmək olar. Məsələn, A.M.Cəfərov tərəfindən XX əsrin sonlarında aparılan monoqrafik tədqiqatda Azərbaycan Respublikasında sosial-iqtisadi dəyişikliklər nəzərə alınmaqla ehtimal-statistik modelləşdirmənin və evristik proqnozlaşdırmanın tətbiqi əsasında cinayətkarlığın vəziyyətinin sistemli-struktur analizi, cinayətkarlıq kimi mürəkkəb və çoxaspektli sosial-hüquqi hadisənin dinamikasının proqnozlaşdırılması həyata keçirilmişdir. Müəllif tərəfindən korrelyasiya-reqressiya və fraktal analiz, qeyri-səlis çoxluqlar nəzəriyyəsi, evristik proqnozlaşdırma metodlarının Azərbaycanda cinayətkarlığın vəziyyət və dinamikasının kriminoloji analizi və proqnozu məqsədilə tətbiqi imkanları öyrənilərək qiymətləndirilmiş, bu metodoloji aparatdan istifadənin ümumelmi ilkin şərtləri müəyyən olunmuşdur.

Beləliklə, hazırda regional cinayətkarlığın proqnozlaşdırılması ilə bağlı bir çox problemlər kompleksi nəzəri və metodoloji baxımdan elmi tədqiqatların obyekti olmamış, bəzi problemli məsələlər isə ümumiyyətlə diqqətdən kənarda qalmışdır. Məzmun etibarilə regional səviyyədə kriminoloji proqnozlaşdırmanın strukturu, regional cinayətkarlığın qısamüddətli və ortamüddətli proqnozlarının qurulmasının metodiki xüsusiyyətləri müəyyən edilməmişdir.

Azərbaycanda regional cinayətkarlıqla bağlı problemlərin öyrənilməsinə kifayət qədər diqqət yetirilməmişdir. Ölkənin iqtisadi rayonlarında, şəhər və rayonlarında cinayətkarlığın kriminoloji xarakteristikası elmi ədəbiyyatda praktiki olaraq nəzərdən keçirilmir. Halbuki son illərdə bu problem böyük çəki yığmaqdadır.

Azərbaycan Respublikasının əksər regionlarında kriminoloji şəraitin xüsusiyyətləri kifayət edəcək səviyyədə tədqiq edilməmiş, istər bütövlükdə region çərçivəsində, istərsə də onun ayrı-ayrı hissələrində təzahür edən cinayətkarlığın, onun ayrı-ayrı növlərinin səbəblərinin, xüsusiyyətlərinin, inkişafının yeni meyllərinin araşdırıldığı monoqrafik işlər praktiki olaraq yoxdur. Bütün bunlar Azərbaycanda cinayətkarlığın regional analizinin metodologiyasının və metodiki əsaslarının işlənib hazırlanmasına istiqamətlənən kompleks tədqiqatların aktuallığını şərtləndirir.

Müasir cinayətkarlıq ildən ilə daha da qəddarlaşır və amansızlaşır. Bunu, şəhərlərin küçələrində törədilən bəzi cinayətlər, məişət zəminində baş verən kriminal əməllər əyani şəkildə göstərir. Cəmiyyətdə mövcud olan bir sıra sosial, demoqrafik və iqtisadi problemlər (natamam ailələrin sayının artması, məktəb və peşə təhsili sahəsində böhran, narkomaniya, nizamlanmamış miqrasiya, işsizlik və s.) küçə cinayətkarlığının və ailə-məişət zəminində baş verən cinayətlərin orbitinə getdikcə daha böyük sayda yeniyetmələrin və gənclərin cəlb olunmasına gətirir.

Bununla belə, şəhər cinayətkarlığının müxtəlif aspektləri ilə bağlı problemlərin tədqiqi səviyyəsi olduqca aşağıdır. Hazırda cinayətkarlıqla mübarizə, hüquq pozuntularının profilaktikası sisteminin əsaslı şəkildə təkmilləşdirilməsi məsələlərinin daha dərin elmi tədqiqinə və müasir dövrün spesifik xüsusiyyətləri nəzərə alınmaqla profilaktikanın yeni formalarının, metodlarının, üsul və vasitələrinin işlənib hazırlanmasına, profilaktik fəaliyyətin məqsədli-proqram yanaşma əsasında həyata keçirilməsinin elmi-metodiki bazasının işlənilməsinə böyük zərurət mövcuddur.

Q.A.Avanesov, M.M.Babayev, S.V.Borodin, S.E.Vitsin, V.D.Malkov, Q.M.Minkovski və digərləri tərəfindən cinayətkarlıqla mübarizə sahəsində proqramlaşdırma ilə bağlı bəzi ümumi xarakterli məsələlər işlənilmişdir. Eyni zamanda bütün ölkə üçün xarakterik olan məsələlərlə yanaşı, öz xüsusiyyətləri və real problemləri ilə səciyyələnən regional səviyyədə cinayətkarlıqla mübarizənin gücləndirilməsi üzrə kompleks proqramların hazırlanması məsələləri elmi tədqiqatlarda kifayət qədər diqqət yetirilməyən və müəyyən mənada diqqətdən kənarda qalan problemlərdəndir. Regional kompleks proqramların strukturu və məzmun tutumu kimi mühüm aspektlər də öz zəruri əsaslandırılmalarını tapmamışdır. Proqramların işlənilməsi və reallaşdırılmasının idarə olunması üzrə effektiv təşkilati strukturun formalaşdırılması məsələləri ilə bağlı mövqelərdə vahidlik də yoxdur. Müasir sosial-iqtisadi və kriminoloji şərait nəzərə alınmaqla regional cinayətkarlığın tədqiqi, proqnozlaşdırılması və profilaktikası sahəsində problemlərin kifayət qədər işlənilməməsi bu mövzunun tədqiqi zəruriliyini şərtləndirir. Bütün bunlar, müasir sosial, iqtisadi, hüquqi, coğrafi, təşkilati-texniki, demoqrafik şəraitlər, mövcud kriminogen durum nəzərə alınmaqla regional cinayətkarlığın tədqiqi, proqnozlaşdırılması və qarşısının alınmasının aktual problemlərinə həsr olunmuş dissertasiya tədqiqatı mövzusunun seçimini şərtləndirmişdir.

**Tədqiqatın obyekti** olaraq regional cinayətkarlığın kriminoloji tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması prosesində yaranan, regional cinayətkarlıqla mübarizə sahəsində təşəkkül tapan ictimai münasibətlər çıxış edir.

**Tədqiqatın predmetini** aşağıdakılar təşkil edir:

- regional cinayətkarlığın kriminoloji analizinin metodologiya və metodikası;
- regional xüsusiyyətlər nəzərə alınmaqla konkret məkan və zaman hüdudlarında cinayətkarlığın kriminoloji tədqiqi, proqnozlaşdırılması və profilaktikasının məqsəd və vəzifələri, obyekti və predmeti, iqtisadi rayonlarda və böyük şəhərlərdə cinayətkarlığın ərazi-məkan xüsusiyyətləri;

- Azərbaycan Respublikasının iqtisadi rayonlarında, şəhərlərində, digər inzibati-ərazi vahidlərində cinayətkarlığın, ayrı-ayrı cinayət növlərinin vəziyyəti, strukturu, dinamikası;

- şəhər cinayətkarlığının vəziyyətinə təsir göstərən miqrasiya və urbanizasiya prosesləri nəticəsində yaranan sosial-demoqrafik və kriminoloji hadisələr və proseslər;

- regional cinayətkarlığı, iqtisadi rayonların ərazilərində qeydə alınan cinayətlərdə ərazi fərqlərinin yaranmasını şərtləndirən səbəb və şəraitlər, amillər kompleksi;

- regional cinayətkarlığın profilaktikasının formaları və metodları;

- regional cinayətkarlıqla mübarizə sahəsində kompleks proqramların məzmunu, konsepsiyası, strukturu, reallaşdırılma mexanizmi;

- cinayətkarlıqla, o cümlədən regional cinayətkarlıqla, ayrı-ayrı cinayət növləri ilə mübarizə məsələlərini tənzimləyən qanunlar, normativ hüquqi aktlar, proqramlar, fəaliyyət planları və s.

**Tədqiqatın məqsədi və əsas vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan Respublikasında regional cinayətkarlığın, yəni ölkənin iqtisadi rayonlarında və böyük şəhərlərində cinayətkarlığın kriminoloji tədqiqi, proqnozlaşdırılması və profilaktikasının elmi-nəzəri, hüquqi və təşkilati-metodiki əsaslarının işlənib hazırlanmasından, regional cinayətkarlığın səviyyəsi, strukturu və dinamikasının, səbəb və şərait kompleksinin, əsas meyllərinin və qanunauyğunluqlarının müəyyən edilməsindən, regional səviyyədə kriminoloji proqnozların qurulmasına, ölkənin iqtisadi rayonlarında, şəhərlərində, habelə kənd əhalisinin üstünlük kəsb etdiyi rayonlarda cinayətkarlığın və onun ən təhlükəli forma və növlərinin kriminoloji profilaktikasını həyata keçirməyə imkan verən elmi-nəzəri və metodiki bazanın, uyğun metodologiyanın işlənib hazırlanmasından ibarətdir.

Tədqiqatın vəzifələri onun məqsədlərindən irəli gəlir və işin strukturu ilə müəyyən olunur. Dissertasiya işinin **əsas vəzifələri** aşağıdakılardır:

- kriminologiyada cinayətkarlığın regional tədqiqi istiqamətinin yaranma tarixinin, inkişafı xüsusiyyətlərinin və müasir vəziyyətinin öyrənilməsi;

- cinayətkarlığın regional kriminoloji analizinin əhəmiyyətinin, xüsusiyyətlərinin və əsas istiqamətlərinin müəyyən edilməsi;

- Azərbaycanda regional cinayətkarlığın kriminoloji tədqiqinin müasir vəziyyətinin təhlili, bu sahədə mövcud durumun qiymətləndirilməsi;

- regional kriminologiyanın anlayış aparatının dəqiqləşdirilməsi;

- cinayətkarlığın regional kriminoloji tədqiqinin predmeti və obyektinin, məqsəd və vəzifələrinin müəyyən olunması;

- Azərbaycanda regional cinayətkarlığın vəziyyəti, səviyyəsi, strukturu və dinamikasının, ölkənin iqtisadi rayonlarında və böyük şəhərlərində cinayət-

karlığın və onun ayrı-ayrı növlərinin statistik-kriminoloji analizi və bu əsasda regional cinayətkarlığın xarakterik meyllərin və qanunauyğunluqların üzə çıxarılması;

- Azərbaycan Respublikasının regionlarının kriminoloji təsnifatının işlənib hazırlanması;

- Azərbaycanda cinayətkarlığı, o cümlədən regional cinayətkarlığı doğuran səbəblər və şəraitlərin, sosial, iqtisadi, demoqrafik, coğrafi, mədəni, təşkilati-texniki və digər xarakterli amillər kompleksinin müəyyən edilməsi;

- kriminoloji proqnozlaşdırmanın anlayışının, obyektinin, məqsəd və vəzifələrinin dəqiqləşdirilməsi;

- regional cinayətkarlığın kriminoloji proqnozlaşdırılmasının müasir tədqiqat metodlarının sistemləşdirilməsi;

- Azərbaycanda regional cinayətkarlığın qısamüddətli və ortamüddətli kriminoloji proqnozlaşdırılmasının metodiki əsaslarının işlənib hazırlanması;

- müasir şəraitlərdə regional cinayətkarlığın profilaktikasının anlayışı, məqsədi, vəzifələri, sistemi və prinsiplərinin işlənib hazırlanması;

- regional cinayətkarlığın profilaktikasının müasir formalarının və metodlarının, əsas istiqamətlərinin nəzərdən keçirilməsi;

- regional cinayətkarlığın profilaktikası üzrə ümumsosial və xüsusi-kriminoloji tədbirlər sisteminin işlənilməsi;

- regional cinayətkarlığın profilaktikasında daxili işlər və digər hüquq-mühafizə orqanlarının rolunun dəqiqləşdirilməsi, sosial nəzarət orqanlarının fəaliyyətin təkmilləşdirilməsi üzrə təkliflərin və tövsiyələrin formulə edilməsi;

- şəhər cinayətkarlığının regional kriminoloji tədqiqat obyekti kimi nəzərdən keçirilməsi;

- Azərbaycanın böyük şəhərlərində cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasının, səviyyəsinin kriminoloji analizi, əsas meyllərin müəyyən edilməsi;

- miqrasiya, urbanizasiya və digər sosial-demoqrafik proseslərin cinayətkarlıqda regional fərqlərinin yaranmasına, ölkənin böyük şəhərlərində cinayətkarlığın strukturu və dinamikasında, səviyyəsində neqativ meyllərin yaranmasına təsirinin öyrənilməsi və s.

**Tədqiqatın metodoloji əsasını** regional cinayətkarlığın, onu müşayiət edən proseslərin və hadisələrin idrakına dialektik yanaşma təşkil edir. Ümumelmi idrak metodu olmaqla dialektik metod cinayətkarlıq kimi mürəkkəb və ziddiyyətli hadisəni dinamikada və məkan müxtəlifliyində mahiyyətini açmağa, səbəbiyyət kompleksinin formalaşma xüsusiyyətlərini müəyyən etməyə imkan verir.

Tədqiqat zamanı statistik müşahidə, analiz və sintez, sistemli-struktur, formal-hüquqi, müqayisəli-hüquqi, müqayisəli-coğrafi, konkret-sosioloji, req-

ressiya-korrelyasiyon analiz, kartoqrafik, riyazi statistika, ekstrapolyasiya, modelləşdirmə metodlarından istifadə olunmuşdur.

Statistik müşahidənin köməyi ilə 2006-2015-ci illər üzrə regionların inkişafının iqtisadi, sosial-demoqrafik və digər göstəriciləri, Azərbaycanın iqtisadi rayonlarında, şəhərlərində, digər inzibati-ərazi vahidlərində cinayətkarlığın vəziyyəti və dinamikası haqqında cinayət statistikasının məlumatları öyrənilmişdir.

Cinayətkarlığın xüsusiyyətləri və onu determinə edən sosial və demoqrafik faktorlar haqqında informasiya kriminoloji, sosioloji, iqtisadi, demoqrafik ədəbiyyatın; normativ hüquqi aktların; hakimiyyət və idarəetmə orqanlarının analitik və digər sənədlərinin öyrənilməsi yolu ilə alınmışdır.

**Tədqiqatın nəzəri əsasını** dövlət və hüquq nəzəriyyəsi, kriminologiya, cinayət hüququ, sosiologiya, regional siyasət və iqtisadiyyat, sosial-iqtisadi coğrafiya və sair sahələr üzər aparıcı alimlərin əsərləri təşkil etmişdir. Dissertasiya tədqiqatının məqsəd və vəzifələrinin, əsas nəticələrinin və təkliflərin formulə edilməsi zamanı A.İ.Alekseyev, M.M.Babayev, S.V.Borodin, Y.İ.Qilinski, S.E.Vitsin, A.A.Qabiani, V.İ.Qladkix, K.K.Qoryainov, A.İ.Dolqova, Q.İ.Zabryanski, V.N.Kudryavtsev, V.K.Zvirbul, İ.İ.Karpets, N.F.Kuznetsova, L.V.Kondratyuk, V.V.Luneyev, Q.M.Minkovski, S.S.Ovçinski, E.E.Raska, K.T.Rostov, A.B.Saxarov, Y.Qolik, V.Jatiyev, B.V.Baranov, D.E.Vaniçkin, Q.İ.Şnayder, V.Foks, K.R.Abızov, S.A.Alixanov, E.B.Alayev, A.D.Badov, M.P.Kleymenov, K.K.Qoryainov, V.E.Novçkov, Y.Duk, D.A.Şestakov, S.A.Şotkinov, Y.V.Kiviç, A.V.Kornienko, İ.M.Rəhimov, F.M.Cavadov, F.Y.Səməndərov, B.S.Zahidov, T.E.Qarayev, Ç.F.Mustafayev, A.M.Cəfərov, X.C.Ələkbərov, İ.Vəliyev və digərlərinin əsərlərində öz əksini tapmış fundamental elmi ideyalar və praktiki yönümlü təkliflər nəzərə alınmışdır.

**Tədqiqatın empirik bazası.** Tədqiqatın empirik bazasını Azərbaycan Respublikasının regionlarının, böyük şəhərlərinin inkişafının sosial-iqtisadi, demoqrafik, coğrafi, milli-etnik, mədəni-tarixi xüsusiyyətlərini, ölkə və regional səviyyədə cinayətkarlığın vəziyyəti və dinamikasını əks etdirən statistik məlumatlar təşkil etmişdir. O cümlədən:

- Azərbaycan Respublikasında, onun regionlarında və şəhərlərində 2006-2015-ci illər üzrə qeydə alınmış cinayətlərin vəziyyəti, strukturu və dinamikası haqqında statistik məlumatlar;
- Daxili işlər orqanlarının 250 əməkdaşı, prokurorluğun 50 işçisi, 25 hakim, habelə elmi işçilər və əhalinin müxtəlif sosial qrupları arasında keçirilən sorğuların, o cümlədən ekspert sorğularının nəticələri;
- ölkədə və regionlarda əhalinin sayı və demoqrafik vəziyyət haqqında dövlət statistika komitəsinin informasiya-arayış xarakterli məlumatları;

- regional cinayətkarlığın kriminoloji tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması üzrə digər hüquqşünas-alimlər tərəfindən aparılmış tədqiqatların materialları, həmçinin qlobal kompyuter şəbəkəsi olan İnternetin ayrı-ayrı saytlarında araşdırılan problemlə bağlı olan, onun müxtəlif aspektlərinə aid materiallar.

Qeyd olunanlarla yanaşı, əhalinin sosial-demoqrafik tərkibi, dinamikası, müxtəlif tipli yaşayış məntəqələri üzrə əhalinin paylanması haqqında məlumatlar da təhlil edilmişdir. cinayətkarlıq haqqında statistik məlumatlarla yanaşı, konkret-sosioloji, kriminoloji, demoqrafik və iqtisadi tədqiqatların, ekspertlər, hüquq-mühafizə orqanlarının əməkdaşları arasında keçirilən sorğuların nəticələrindən də istifadə edilmişdir. Azərbaycanın regionlarında, iqtisadi rayonlarında və şəhərlərində əhalinin müxtəlif təbəqələri arasında cinayətkarlıq probleminə və onun determinantlarına dair mövqelər, mövcud ictimai rəy təhlil edilmiş, ümumiləşdirilmiş və konkret nəticələr çıxarılmışdır.

**Tədqiqatın normativ bazasını** Azərbaycan Respublikasının Konstitusiyası, cinayətkarlıqla və onun ayrı-ayrı növləri ilə mübarizə, həmçinin Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı məsələləri ilə bağlı olan qanunlar, normativ hüquqi aktlar, Dövlət Proqramları, Fəaliyyət Planları, Nazirlər Kabinetinin qərarları, regional və idarədaxili normativ aktlar, hüquq qaydasının möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə üzrə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları təşkil etmişdir.

**Dissertasiya tədqiqatının elmi yeniliyi**. Tədqiqat işi, Azərbaycan Respublikasında regional cinayətkarlığın kriminoloji analizinin, proqnozlaşdırılmasının və profilaktikasının elmi-nəzəri, təşkilati-metodiki, metodoloji və praktiki aspektlərinə həsr olunmuş kompleks, məntiqi baxımdan tam, bitkin ilk monoqrafik tədqiqatdır. Milli hüquq elmində ilk dəfə olaraq cinayətkarlığın ərazi-coğrafi xüsusiyyətlərinin kompleks müqayisəli-kriminoloji və statistik-kriminoloji tədqiqi, proqnozlaşdırılması və profilaktikası həyata keçirilmişdir.

Azərbaycanda ilk dəfə olaraq kriminologiya elmində cinayətkarlığın regional tədqiqi istiqamətinin yaranması və inkişafı, ölkədə regional cinayətkarlığın kriminoloji tədqiqinin müasir vəziyyəti araşdırılmış, regional cinayətkarlığın kriminoloji analizinin predmeti, obyekti, məqsəd və vəzifələri, əsas istiqamətləri müəyyən edilmişdir.

Monoqrafik tədqiqatda qloballaşma şəraitində dünyada və regionlarda cinayətkarlığın müasir vəziyyəti və meylləri üzə çıxarılmış, Azərbaycanda və ölkənin iqtisadi rayonlarında cinayətkarlığın vəziyyəti, strukturu və dinamikası, səviyyəsi statistik-kriminoloji baxımdan qiymətləndirilmiş, iqtisadi rayonlar və şəhərlər üzrə cinayətkarlığın xarakterik meylləri və qanunauyğunluqları aşkar edilmişdir.

Azərbaycan Respublikasının iqtisadi rayonlarının, şəhərlərinin, Bakı şəhərinin inzibati rayonlarının kriminoloji təsnifatı işlənib hazırlanmışdır.

Qeydə alınmış cinayətlərin səviyyəsi, habelə qəsdən adam öldürmə, sağlamlığa ağır zərər vurma, oğurluq, dələduzluq, soyğunçuluq, quldurluq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, xuliqanlıq, vergi ödəməkdən yayınma, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma və digər kriminal əməllər üzrə 2009-2015-ci illər üzrə hesablanmış orta cinayətkarlıq əmsalı əsasında iqtisadi rayonlar, iqtisadi rayonların tərkibinə daxil olan inzibati ərazi vahidləri, şəhərlər, eyni zamanda Bakı şəhərinin inzibati rayonları üzrə cinayətkarlıq səviyyəsinin, həmçinin qeyd olunan cinayətlərin səviyyəsinin yüksək olduğu ərazilər, regionlar, rayonlar müəyyən edilmişdir.

Regional cinayətkarlığın proqnozlaşdırılmasının əhəmiyyətinin, məqsəd və vəzifələrinin müəyyən edilməsi, Azərbaycanın iqtisadi rayonlarında və şəhərlərində, yəni regional səviyyədə cinayətkarlığın proqnozlaşdırılmasının metodoloji və metodiki əsaslarının işlənilməsi də elmi yenilik kəsb edən məsələlər dairəsinə aid edilməlidir.

Dissertasiya işində regional cinayətkarlığın qarşısının alınmasının, profilaktikasının əsas istiqamətləri və xüsusiyyətləri müəyyən olunmuş, regional cinayətkarlığın qarşısının alınması üzrə kompleks regional proqramların mahiyyəti, strukturu və əsas elementləri müəyyən olunmuşdur.

Dissertasiyada ağır və xüsusilə ağır cinayətlərə dair işlərdə istintaq sövdələşməsi institutunun cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulması profilaktik nöqteyi-nəzərdən məqsədəuyğun hesab edilmişdir.

Tədqiqat nəticələrinin, formulə edilmiş təkliflərin və tövsiyələrin elmi yeniliyi həmçinin aşağıdakılarla səciyyələnir:

- tədqiqatın obyekti və predmetinin öyrənilməsi və analizinə kompleks yanaşma formulə edilmişdir;
- regional kriminologiyanın anlayış aparatı, predmeti, obyekti, məqsəd və vəzifələri dəqiqləşdirilmişdir;
- regional cinayətkarlığın kriminoloji analizi, proqnozlaşdırılması və qarşısının alınmasının konseptual əsasları işlənib hazırlanmışdır;
- regional cinayətkarlığın qısamüddətli və ortamüddətli proqnozlaşdırılmasının metodiki əsasları, metodologiyası işlənib hazırlanmışdır;
- ilk dəfə olaraq Azərbaycanın iqtisadi rayonlarında və böyük şəhərlərində cinayətkarlığın kriminoloji tədqiqi və profilaktikası sahəsində mövcud problemlər kompleksi sistemli-struktur yanaşma əsasında araşdırılmış, bu problemlərin həlli yolları təklif edilmişdir;

- regional cinayətkarlığın kriminoloji tədqiqi, proqnozlaşdırılması və profilaktikası, regional kriminologiya haqqında elmi-nəzəri təsəvvürlər dərinləşdirilmişdir;

- cinayətkarlığın kriminoloji tədqiqinə regional yanaşmanın zəruriliyi əsaslandırılmış, belə analizin metodologiyası və metodikası təklif edilmişdir;

- regional cinayətkarlığın strukturu, səviyyəsi, vəziyyəti və dinamikasını determinə edən, əsas meyllərini səciyyələndirən sosial, iqtisadi, demoqrafik, coğrafi və s. amillər müəyyən edilərək sistemləşdirilmişdir;

- regional cinayətkarlığın qarşısının alınmasına kompleks məqsədli-proqram yanaşma irəli sürülmüş, belə bir yanaşmanın reallaşdırılması mexanizmləri təklif olunaraq əsaslandırılmışdır;

- regional cinayətkarlığın profilaktikasına istiqamətlənən kompleks proqramların mahiyyəti, strukturu və əsas elementləri müəyyən olunmuşdur;

- «Hüquq pozuntularının qarşısının alınması sisteminin əsasları haqqında» Qanun layihəsi təklif olunmuşdur;

- «Azərbaycan Respublikasının regionlarında cinayətkarlığın profilaktikası üzrə kompleks proqram» ın, habelə kənd əhalisinin xüsusi çəkisinin yüksək olduğu regionlarda cinayətkarlığın profilaktikası üzrə dövlət proqramının, şəhər mühitində cinayətkarlığın qarşısının alınmasına istiqamətlənmiş «Təhlükəsiz şəhər» konsepsiyasının məzmunu, əsas struktur elementləri və onların mahiyyəti üzrə məsələlərə müəllif baxışı təklif olunmuşdur;

- kriminallaşdırma və dekriminallaşdırma ilə bağlı məsələlər təhlil edilmiş, Azərbaycan Respublikasında bir sıra əməllərin dekriminallaşdırılması, habelə son illərdə ictimai təhlükəliliyi kifayət qədər yüksək olan bəzi əməllərin kriminallaşdırılması, bu əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutan bir sıra maddələrin cinayət qanunvericiliyinə daxil edilməsi təklif edilmişdir;

- regional cinayətkarlığın inkişafının yeni meyllərinin və qanunauyğunluqlarının idrakı əsasında regional səviyyədə effektiv kriminoloji nəzarətin və kriminoloji təhlükəsizliyin təmininə istiqamətlənmiş tədbirlər kompleksi işlənib hazırlanmış, konkret təkliflər və tövsiyələr formulə edilmişdir.

- cinayətkarlığın meyllərinin və qanunauyğunluqlarının, səbəb və şəraitlərinin müəyyən olunmasında, proqnozların qurulmasında, kriminal əməllərin profilaktikasında kriminoloji biliklərin xüsusi əhəmiyyət kəsb etməsi nəzərə alınmaqla hüquq-mühafizə orqanlarının strukturunda kriminoloq vəzifəsinin nəzərdə tutulması məqsədəmüvafiq hesab edilməlidir.

- Regional cinayətkarlığın qarşısının alınması sistemində ixtisaslaşmış analitik xidmətin yaradılmasının məqsədəuyğunluğu barədə təkliflər verilmiş və əsaslandırılmışdır. Müəllif mövqeyinə görə bu xidmətin əsas vəzifələrinə digərləri ilə yanaşı, mövcud problemlərin öyrənilməsi, regionun coğrafi, etnik, sosial-iqtisadi, demoqrafik və s. kimi xüsusiyyətlərin spesifikliyi nəzərə alın-

maqla hər bir profilaktika subyektləri üçün ayrı-ayrılıqda regional cinayətkarlığın qarşısının alınması üzrə tədbirlərin və tövsiyələrin işlənib hazırlanması aid edilə bilər.

- normativ hüquqi aktların və onların layihələrinin kriminoloji ekspertizasının təşkili və aparılması zəruriliyinin qanunvericilik səviyyəsində təsbit edilməsi təklif olunmuşdur;

- Azərbaycanda, ölkənin iqtisadi rayonları və şəhərləri üzrə kriminoloji təhlükəsizlik konsepsiyasının işlənib hazırlanması təklif edilmiş və əsaslandırılmışdır.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

1. Regional kriminologiyanın dəqiqləşdirilmiş anlayış aparatı.
2. Cinayətkarlığın regional kriminoloji analizinin predmeti və obyekti, məqsəd və vəzifələrinin müəllif variantı.
3. Regional cinayətkarlığın profilaktikası üzrə kompleks proqramın strukturu və əsas elementləri.
4. Cinayətkarlığın profilaktikası üzrə regional kompleks proqramların işlənib hazırlanması və reallaşdırılmasının təşkilati-metodiki, hüquqi və s. təminatı üzrə təkliflər və tövsiyələr.
5. Sosial, coğrafi, iqtisadi, demoqrafik və kriminoloji əlamətlər kompleksinə görə Azərbaycanın iqtisadi rayonlarının və böyük şəhərlərinin kriminoloji tipologiyası və təsnifatı.
6. Regional cinayətkarlığın kəmiyyət-keyfiyyət parametrlərinin və göstəricilərinin şəhər və kənd rayonlarının funksional tipindən, yaşayış məntəqələrinin ölçülərindən asılılığı.
7. Regional cinayətkarlığı şərtləndirən sosial, iqtisadi, hüquqi, demoqrafik, coğrafi, psixoloji, təşkilati-texniki və digər xarakterli determinantlar kompleksi.
8. Proqram-məqsədli planlaşdırma və idarəetmə prinsipləri əsasında regional cinayətkarlığın qarşısının alınması sisteminin təşkilati-struktur və funksional quruluşu üzrə təkliflər.
9. İnnovativ metodlardan, kompyuter texnologiyalarından, informasiya-telekommunikasiya vasitələrindən istifadə etməklə Azərbaycanın iqtisadi rayonlarında və böyük şəhərlərində cinayətkarlığın ümumi və xüsusi profilaktikasının təkmilləşdirilməsi üzrə təkliflər.
10. Azərbaycan Respublikasının bir sıra iqtisadi rayonlarında kriminoloji duruma regionun xüsusi coğrafi mövqeyinin – onun ərazisindən istər yerli, istərsə respublika, istərsə də beynəlxalq əhəmiyyətli şaxələnmiş avtomobil yolları şəbəkəsinin mövcudluğunun, habelə regionun xarici ölkələrə (İran, Türkiyə, Rusiya Federasiyası, Gürcüstan) bilavasitə yaxınlığının,

əhalinin yüksək mütəhərrikliyinin (yer dəyişkənliyinin), nizamlanmayan miqrasiya proseslərinin, habelə urbanizasiyanın fəsadlarının təsir göstərməsi.

11. Regionda cinayətkarlığın ümumsosial və xüsusi-kriminoloji səviyyədə qarşısının alınmasının təkmilləşdirilməsinə istiqamətlənmiş təkliflər və tövsiyələr, tədbirlər kompleksi.

12. Böyük şəhərlərin kriminoloji xarakteristikasında öz izini qoyan xüsusiyyətlərdən birinin əhalinin şəhərdaxili miqrasiyasında, şəhərətrafı sakinlərin rəqqasi əmək miqrasiyasında ifadə olunan əhalinin yüksək mobilliyi, həmçinin şəhər həyatının anonimliyi ilə bağlı olması.

13. Regional cinayətkarlığın qarşısının alınması, cəmiyyətdə hüquq qaydasının saxlanması və möhkəmləndirilməsinə istiqamətlənmiş antikriminal fəaliyyətdən ibarətdir. Bu sistemə kriminogen amillərə və kriminal təhlükəli vəziyyətlərə qabaqlayıcı təsirin təmin edilməsi məqsədilə cinayətkarlığın səbəblərinin və şəraitlərin müəyyən edilməsi, aradan qaldırılması və ya neytrallaşdırılması yolu ilə profilaktika subyektləri tərəfindən həyata keçirilən müxtəlif tədbirlər.

14. «Hüquq pozuntularının qarşısının alınması sisteminin əsasları haqqında» Azərbaycan Respublikası Qanununun layihəsi.

15. «Azərbaycan Respublikasının regionlarında cinayətkarlığın profilaktikası üzrə kompleks proqram»ın işlənib hazırlanması zəruriliyinin əsaslandırılması, belə bir konsepsiyanın strukturu və əsas elementlərinə dair təkliflər.

16. Cinayətkarlığın meyllərinin və qanunauyğunluqlarının, səbəb və şəraitlərinin müəyyən olunmasında, proqnozların qurulmasında, kriminal əməllərin profilaktikasında kriminoloji biliklərin xüsusi əhəmiyyət kəsb etməsi nəzərə alınmaqla hüquq-mühafizə orqanlarının strukturunda kriminoloq vəzifəsinin nəzərdə tutulması.

17. Regional cinayətkarlığın qarşısının alınması sistemində ixtisaslaşmış analitik xidmətin yaradılmasının məqsədəuyğunluğu barədə əsaslandırılmış təkliflər.

18. Son illərdə ictimai təhlükəliyi əhəmiyyətli dərəcədə yüksələn bəzi əməllərin kriminallaşdırılması, ictimai təhlükəliyi o qədər də yüksək olmayan bir sıra əməllərin isə dekriminallaşdırılması üzrə təkliflər.

19. Kiberdələduzluq, kiberterrorizm, zorakılıq və qəddarlıq təbliğ edən materialları hazırlama və yayma, kommersiya casusluğu və s. əməllərin kriminallaşdırılması üzrə təkliflər və bu əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutan cinayət tərkiblərinin (maddələrinin) redaksiyası.

20. Normativ hüquqi aktların və onların layihələrinin kriminoloji ekspertizasının aparılması zəruriliyi barədə təkliflər.

21. Azərbaycan Respublikasının iqtisadi rayonları və şəhərləri üzrə kriminoloji təhlükəsizlik konsepsiyasının işlənib hazırlanması zəruriliyi barədə təkliflər və s.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti** əldə edilən nəticələrin, müdafiəyə təqdim olunan müddəaların, irəli sürülən və əsaslandırılan təkliflər kompleksinin aşağıdakı istiqamətlərdə istifadə olunması ilə müəyyən olunur:

- Azərbaycan Respublikasında cinayətkarlıqla, o cümlədən ölkənin ayrı-ayrı rayon və şəhərlərində, iqtisadi rayonlarında cinayətkarlıqla və onun təhlükəli forma və növləri ilə mübarizə üzrə hüquq-mühafizə orqanlarının praktiki fəaliyyətində;
- ali məktəblərin hüquq fakültələrində tədris prosesində, xüsusi kursların aparılmasında;
- regional cinayətkarlığın, şəhər və kənd yerlərində törədilən cinayətlərin, ayrı-ayrı cinayət növlərinin kriminoloji analizi, proqnozlaşdırılması və qarşısının alınması sahəsində aparılan elmi araşdırmalarda;
- regionlar cinayətkarlığın qarşısının alınması və profilaktikası sistemini tənzimləyən qanunvericilik bazasının, normativ hüquqi aktların, xüsusi qanunların, kompleks proqramların, konsepsiyaların, milli fəaliyyət planlarının və strategiyalarının hazırlanmasında.

**Tədqiqat nəticələrinin aprobasiyası**. Dissertasiya tədqiqatının ümumiləşdirilmiş əsas nəticələri, müdafiəyə çıxarılan müddəalar, irəli sürülərək əsaslandırılmış təkliflər və tövsiyələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan elmi jurnallarda məqalələr şəklində dərc olunmuş, bir sıra beynəlxalq elmi-praktiki konfranslarda məruzə olunmuş, Azərbaycan Respublikasının Milli Məclisi Aparatına hüquq yaradıcılığı prosesində istifadə edilməsi üçün göndərilmiş və müsbət cavab alınmış, həmçinin DİN-nin Polis Akademiyasında tədris edilən bir sıra fənlər üzrə tədris materiallarına daxil edilmişdir.

**Dissertasiyanın strukturu**. Tədqiqat işinin strukturu onun məqsəd və vəzifələrinə uyğun olmaqla giriş, 6 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat və əlavələr kimi hissələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **«Giriş»** hissəsində monoqrafik tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin elmi işlənilmə səviyyəsi, dissertasiya tədqiqatının obyekti və predmeti, məqsəd və vəzifələri, metodoloji əsasları, nəzəri, normativ və empirik bazası, elmi yeniliyi göstərilir, müdafiəyə təqdim edilən müddəalar, tədqiqat nəticələrinin elmi-nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası və strukturu barədə məlumat verilir.

Dissertasiya işinin **«Azərbaycanda cinayətkarlığın regional-kriminoloji tədqiqinin məqsəd və vəzifələri, əhəmiyyəti»** adlanan və üç paraqrafdan ibarət olan **birinci fəslində** kriminologiya elmində cinayətkarlığın regional tədqiqi istiqamətinin yaranması və inkişafı; Azərbaycanda regional cinayətkarlığın kriminoloji tədqiqinin müasir vəziyyəti; regional cinayətkarlığın kriminoloji analizinin predmeti, obyekti, məqsəd və vəzifələri, əsas istiqamətləri kimi məsələlər kompleksi hərtərəfli şəkildə araşdırılmışdır.

**«Kriminologiya elmində cinayətkarlığın regional tədqiqi istiqamətinin yaranması və inkişafı»** adlanan **birinci paraqrafında** qeyd olunur ki, coğrafi mühitin spesifik xüsusiyyətləri, müəyyən ərazi vahidində, şəhər və kənd yaşayış məskənlərində mövcud iqtisadi, sosial, siyasi şərait ilə orada məskunlaşan insanların xarakteri, davranışı, o cümlədən cinayətkar davranışı arasında asılılıq qədim dövrlərdən bəri insanları düşündürmüşdür. Məsələn, Hippokrat insan xarakterləri və coğrafi mühit arasında əlaqə və asılılığın mövcudluğundan danışmışdır. Sisseron, Platon kimi filosofların əsərlərində də bu kimi düşüncələrə rast gəlmək olar. Hələ qədim dövrlərdə filosoflar cinayətkarlığa coğrafi mühitin təsir göstərdiyi qeyd edilsə də, kriminologiya elminin bu istiqamətinin yaranması, cinayətkarlığın regional səviyyədə, ərazi-coğrafi amil nəzərə alınmaqla öyrənilməsi XVIII əsrin ortalarından daha sistemli şəkildə həyata keçirilməyə başlamışdır. Cinayətkarlığın coğrafi aspektlərdən tədqiqi, regional cinayətkarlığın analizi sahəsində kriminoloji xarakter daşıyan araşdırmalar isə XIX əsrin ortalarından aparılmağa başlamışdır. Bu dövrdən etibarən hüquqşünaslar, sosioloqlar, antropoloqlar və digərləri tərəfindən qonşu ölkələrdə, ölkə ərazisinin ayrı-ayrı regionlarında, şəhər və kənd məskənlərində cinayətkarlığın vəziyyəti, struktur və dinamikasında, səviyyəsində əhəmiyyətli fərqlərin mövcudluğunu müşahidə etmiş və bu fərqlərin yaranma səbəblərini öyrənməyə çalışmışlar. Bununla belə, ayrı-ayrı ölkələrdə, ölkənin müxtəlif inzibati-ərazi vahidlərində, böyük şəhərlərdə, kənd yaşayış məskənlərində cinayətkarlığın strukturunun, səviyyəsinin, bu coğrafi məkanlarda cinayətkarlığı və onun ayrı-ayrı növlərini doğuran səbəblərin və şəraitlərin, onların qarşısının alınması ilə bağlı problemlərin elmi-nəzəri və empirik kriminoloji tədqiqi sahəsində araşdırmalar yalnız XX əsrin ortalarından aparılmağa başlamışdır.

Cinayətkarlığın regional tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması sahəsində elmi-nəzəri və empirik araşdırmaların aparılmağa başlaması, kriminologiyada cinayətkarlığın ərazi-regional tədqiqi istiqamətinin təşəkkülü və inkişafının analizinin zaman etibarilə aşağıdakı dövrləri və mərhələləri əhatə etdiyini göstərmək olar:

- Antik dövr - cinayətkarlıq, cinayətkar, cinayətkara müxtəlif hadisə və proseslərin, o cümlədən coğrafi mühitin təsiri ilə bağlı ilk və müəyyən qədər də primitiv təsəvvürlərin yaranması, belə fikir və mülahizələrin əsasən filosoflar tərəfindən səsləndirilməsi;

- XVIII əsrin əvvəlləri – XIX əsrin ortaları - filosoflar, hüquqşünaslar, antropoloqlar tərəfindən cinayətkarlığın ayrı-ayrı ərazi vahidlərində, ölkənin müxtəlif hissələrində, xüsusən də şəhər və kənd rayonlarında, coğrafi mühit nöqteyi-nəzərindən kəskin fərqlənən ərazilərdə öyrənilməsinin zəruriliyinin dərk olunması, bununla bağlı ilk nəzəri baxışların formalaşması;

- XIX əsrin ortalarından - XX əsrin əvvəllərinə qədər olan dövr - sosioloqlar, psixoloqlar, statistika üzrə mütəxəssislər, kriminoloqlar, antropoloqlar və digər peşə sahibləri, dövrün tanınmış alimləri tərəfindən qonşu ölkələrdə, ölkə ərazisinin ayrı-ayrı regionlarında, şəhər və kənd məskənlərində cinayətkarlığın vəziyyəti, struktur və dinamikası, səviyyəsi ilə bağlı ilk empirik tədqiqatların gerçəkləşdirilməsi, ayrı-ayrı regionlarda cinayətkarlığın kəmiyyət-keyfiyyət parametrlərində fərqlərin yaranması səbəblərinin elmi-nəzəri və empirik əsaslandırılmasına ilk cəhdlərin edilməsi;

- XX əsrin 50-80-cı illəri – regional səviyyədə həyata keçirilən sosial-kriminoloji tədqiqatların çoxalması, bu sahəyə diqqətin əhəmiyyətli dərəcədə artması, bir çox ölkələrdə cinayətkarlığın regional səviyyədə tədqiqi, cinayətkarlığın struktur və dinamikasında, səviyyəsində ərazi fərqlərinin yaranmasını şərtləndirən səbəb və şəraitlərin, amillərin kompleks şəkildə, elmi-nəzəri və empirik baza əsasında həyata keçirilməyə başlaması;

- XX əsrin 90-cı illərindən başlayan və hazırda da davam edən dövr - cinayət-karlığın ərazi-coğrafi nöqteyi-nəzərdən, regional səviyyədə kriminoloji analizi, proqnozlaşdırılması və profilaktikası məsələlərinə diqqətin daha da artması, bu sahədə fundamental xarakterli elmi-nəzəri araşdırmaların intensivləşməsi, kriminologiya elmində yeni bir istiqamətin yaranması. Məhz bu illərdə cinayətkarlığın regional tədqiqi, proqnozlaşdırılması və profilaktikası kimi kriminoloji istiqamətin məqsəd və vəzifələrinin, predmetinin və obyektinin müəyyən edilməsi üzrə elmi tədqiqatlar aparılmağa başlamış və bu iş hələ də davam etməkdədir.

**«Azərbaycanda regional cinayətkarlığın kriminoloji tədqiqinin müasir vəziyyəti»** adlanan **birinci fəslin ikinci paraqrafı** göstərilir ki, Azərbaycan hüquq elminin nümayəndələri İ.İsmayılov, İ.Rəhimov, X.Ələkbə-

rov, F.Səməndərov, T.Qarayev, B.Zahidov və digərləri cinayətkarlığın proqnozlaşdırılmasında, cinayətkarlıqla mübarizənin kompleks və elmi zəmin əsasında təşkili və həyata keçirilməsində cinayətkarlığın regional kriminoloji tədqiqinin rolu və əhəmiyyətini qeyd etmişlər. Onlar, regional səviyyədə, ayrı-ayrı inzibati-ərazi vahidlərində, şəhər və rayon hüdudlarında cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasının, regional cinayətkarlığı determinə edən səbəb və şəraitlərin, sosial, iqtisadi, demoqrafik, təşkilati, texniki və s. xarakterli amillər kompleksinin tədqiqinin vacibliyi və əhəmiyyətini, müasir mərhələdə regional cinayətkarlığın tədqiqinin kriminologiya elminin əsas istiqamətlərindən birinə çevrildiyini göstərmişlər. Qeyd edək ki, kriminoloji tədqiqatların bu istiqamətinin vacibliyini nəzərə alaraq professor X. Ələkbərov bir daha bu sahəyə diqqət yetirmiş, Azərbaycanın ayrıca götürülmüş bir regionunda, Naxçıvan iqtisadi rayonunda cinayətkarlığın strukturu və dinamikası, bu sahədə mövcud kriminoloji vəziyyətlə bağlı maraqlı təhlil və araşdırmanı həyata keçirmişdir. «Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» mövzusunda 18 dekabr 2013-cü il tarixdə keçirilən beynəlxalq elmi-praktik konfransda Naxçıvanda cinayətkarlığın vəziyyəti, strukturu və dinamikası ilə bağlı öz fikir və mülahizələrini konfrans iştirakçıları ilə bölüşmüşdür. Eyni zamanda, prof. X.Ələkbərov regional yönümlü kriminoloji araşdırmaları Azərbaycanın yalnız bir iqtisadi rayonu üzrə həyata keçirmişdir. Müəllif tərəfindən bu iqtisadi rayonda kriminoloji tədqiqatların tam başa çatdırılmadığı və hətta özünün qarşıya qoyduğu bir sıra suallara, problemli məsələlərə aydınlıq gətirmədiyi də qeyd edilməlidir.

XX əsrin 90-cı illərinin ortalarında YAbdullayev və M.Kazımov da kriminologiya elminin bu istiqamətinə müraciət etmiş, cinayətkarlığın «coğrafi» tədqiqinin rolu və əhəmiyyətini, regional kriminoloji analizlərin aparılmasının zəruri olduğunu əsaslandırmışlar. Onlar tarixi-hüquqi nöqteyi-nəzərdən cinayətkarlığın coğrafi tədqiqi sahəsində mövcud vəziyyəti öyrənmiş, cinayətkarlığın struktur və dinamikasında ərazi fərqlərinin yaranması səbəbləri ilə bağlı aparılan araşdırmaları təhlil etmişlər. Müəlliflərin «cinayətkarlığın «coğrafiyası»: tarixi-hüquqi baxış» adı altında nəşr olunan və 47 səhifədən ibarət olan kitabda kriminologiya elminin bu istiqamətinin yaranması və inkişafı təhlil edilmişdir. Qeyd olunanlarla yanaşı, kitabda keçmiş SSRİ-nin Latviya, Gürcüstan, Rusiya və Azərbaycan kimi respublikalarında, həmçinin ABŞ-da aparılmış regional-coğrafi yönümlü kriminoloji tədqiqatlar təhlil edilmişdir.

Azərbaycanda regional səviyyədə cinayətkarlığın kriminoloji tədqiqi, proqnozlaşdırılması və profilaktikası məsələlərinin araşdırıldığı və təhlil edildiyi tədqiqatlar o qədər də çox deyildir. Regional cinayətkarlıqla bağlı bir çox problemlərin elmi araşdırılmasına, nəzəri idrakına real zərurət hələ də qalmaqdadır.

**Birinci fəslin üçüncü paraqrafı «Regional cinayətkarlığın kriminoloji analizinin predmeti, obyekti, məqsəd və vəzifələri, əsas istiqamətləri»** adlanır. Burada regional kriminologiyanın obyekti və predmeti, Azərbaycanda Respublikasında regional cinayətkarlığın kriminoloji tədqiqinin məqsəd və vəzifələri müəyyən edilmişdir.

Regional cinayətkarlığın kriminoloji analizinin məqsədləri sırasında göstərilə bilər: 1) cinayətkarlığın və onunla bağlı şəraitin kriminoloji əhəmiyyət kəsb edən regional spesifikasının müəyyən edilməsi; 2) regionların, ayrı-ayrı inzibati ərazi vahidlərinin kriminoloji təsnifatının işləyib hazırlanması; 3) cinayətlərin qarşısının alınmasının regional strategiyasının və taktikasının işlənib hazırlanması; 4) regionlarda cinayətkarlıqla mübarizənin və cinayətlərin qarşısının alınmasının hüquqi, elmi-kriminoloji, təşkilati, informasiya, maddi-texniki və digər təminat sisteminin yaradılması.

Cinayətkarlığın regional tədqiqinin əsas vəzifələri sırasında göstərilə bilər: 1) Regional cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasının, səviyyəsinin, əsas meyllərinin və qanunauyğunluqlarının analizi; 2) bu və ya digər ərazidə cinayətkarlığı səciyyələndirən xarakterik cəhətlərin, cinayətkarlığı determinə edən kriminogen və antikriminogen amillər məcmusunun müəyyən edilməsi; 3) region səviyyəsində cinayətkarlıqla mübarizə üçün elmi, təcrübi və maddi-texniki potensialının qiymətləndirilməsi; 4) müqayisəli regional kriminoloji analiz əsasında hüquq-mühafizə orqanlarının qüvvə və vasitələrinin cəlb edilməsinin zəruri olduğu, cinayətkarlığın səviyyəsi və intensivliyinin daha yüksək olduğu regionların müəyyən edilməsi; 5) mürəkkəb və çoxaspektli sosial-hüquqi hadisə kimi regional cinayətkarlığın kəmiyyət-keyfiyyət parametrlərinin modelləşdirilməsi və proqnozlaşdırılması; 6) konkret regionun spesifik sosial, iqtisadi, demoqrafik və sair xüsusiyyətlərini maksimal dərəcədə nəzərə alan cinayətkarlığın qarşısının alınması və profilaktikası üzrə regional proqramların, konsepsiyaların, strategiyaların işlənib hazırlanması və s.

Cinayətkarlığın coğrafi tədqiqinin vəzifələrindən biri də şəhər cinayətkarlığının, xüsusən də böyük şəhərlərdə cinayətkarlığın vəziyyəti, struktur və dinamikasının, mövcud kriminogen və antikriminogen meyllərin kriminoloji analizi, bu inzibati-ərazi vahidlərində kriminoloji şəraitin qiymətləndirilməsi, mövcud meyllərin və qanunauyğunluqların üzə çıxarılması və bu əsasda şəhər cinayətkarlığının profilaktikasının təşkili və həyata keçirilməsidir.

Cinayətkarlığın «coğrafiyasının» öyrənilməsinin kriminologiya elmi və cinayətkarlıqla mübarizə təcrübəsi üçün verə biləcəyi üstünlüklərə, bu növ tədqiqatların məqsəd və vəzifələrinə aydınlıq gətirmək üçün aşağıdakıları xüsusi olaraq qeyd etmək olar:

1) Coğrafi-kriminoloji analiz cinayətkarlığın bütün regionlar üçün ümumi xarakter daşıyan xüsusiyyətləri ilə yanaşı, müəyyən qrup regionlara xas

olan və xüsusi xarakter daşıyan kəmiyyət və keyfiyyət parametrlərini, habelə ayrıca götürülmüş region üçün xarakterik olan kriminoloji xüsusiyyətləri aşkar etməyə imkan verir. Əldə edilmiş empirik məlumatlar, kriminoloji biliklər, cinayətkarlığın ümumi meylləri və qanunauyğunluqları haqqında mühakimə yürütməyə, müxtəlif sosial-iqtisadi və sosial demoqrafik göstəricilərə malik olan regionlarda onun sabit kəmiyyət-keyfiyyət göstəriciləri sistemini ayırmağa, regional cinayətkarlığın struktur və dinamikasında ümumi və səciyyəvi meylləri üzə çıxarmağa imkan yaradır.

2) Müxtəlif regionlarda cinayətkarlığın xarakteristikaları ilə sosial, iqtisadi, coğrafi, təşkilati, texniki və s. amillərin müqayisəli analizi cinayətkarlığın səbəb və nəticə kompleksinin differensiasiyalı mənzərəsinin alınması, bütün regionlar üçün ümumi olanlarla yanaşı, həm də ayır-ayrı qrup regionlarda və ya müəyyən bir inzibati-ərazi vahidinə xas olan səbəb və şəraitlər, amillər kompleksinin müəyyən edilməsi, regionların kriminoloji təsnifatının işlənib hazırlanması mümkün olur.

3) Respublikanın müxtəlif iqtisadi regionları üçün əhalinin demoqrafik modelinin ilə cinayətkarın şəxsiyyətinin uyğun modelin qurulması və onların müqayisəli təhlilinin aparılması hər bir region üçün xarakterik olan cinayətkar tipini müəyyən etməyə və deməli regional səviyyədə fərdi profilaktika sistemini təşkil etməyə imkan verir.

4) Cinayətkarlığın «coğrafi» paylanması, müxtəlif ərazilərdə onun struktur və dinamikasında yaranan fərqlərin səbəbləri haqqında olan təsəvvürlər, səhih və elmi zəmin əsasında əldə edilmiş və kriminoloji əhəmiyyət kəsb edən biliklər, bu sosial-hüquqi hadisəni doğuran səbəb və şəraitlər, amillərin təhlilini aparmağa və son nəticədə cinayətkarlıqla mübarizə üzrə regional modellər kompleksini qurmağa, xüsusi regional proqramlar və fəaliyyət planlarını işləyib hazırlamağa imkan verir.

5) Cinayətkarlığın coğrafi tədqiqi, ölkənin ayrı-ayrı regionlarının kriminoloji analizi, cinayətkarlığın ən yüksək intensivlik zonalarının üzə çıxarılmasına, cinayətkarlığın regional kriminoloji xəritəsini qurmağa və deməli, sosial nəzarət, o cümlədən hüquq mühafizə orqanlarının qüvvə və vasitələrin «manevrini» təşkil edərək həyata keçirməyə, bir sözlə, cinayətkarlıqla fəallığın artırılmasını tələb edən uyğun məkanı və zamanı düzgün seçməyə imkan verir.

6) Regional cinayətkarlığın struktur təhlili, ayrı-ayrı cinayətlərin regional səviyyədə paylanması meyllərinin kriminoloji analizi ağır, xüsusilə ağır, zorakı, tamah və tamah-zorakı xarakterli cinayət növləri üzrə regionların kriminoloji təsnifatını işləyib hazırlamağa, bu cinayətlərin respublikanın rayon və şəhərləri üzrə paylanmasının ümumi mənzərəsini formalaşdırmağa, yəni kriminoloji xəritəsini qurmağa imkan verir.

7) Azərbaycanın iqtisadi rayonlarında, şəhərlərində və kənd yaşayış məskənlərində mövcud sosial, demoqrafik, iqtisadi və digər proseslərin və hadisələrin öyrənilməsi və onların regional səviyyədə cinayətkarlığın strukturunda və səviyyəsində neqativ meyllərin yaranmasına təsir dərəcəsinin üzə çıxarılması, hər bir konkret region üçün nəzərdə tutulmuş profilaktik tədbirlər sistemini yaratmağa, sosial nəzarəti həyata keçirən daxili işlər və prokurorluq orqanlarının, digər dövlət qurumlarının, ictimai təşkilatların, dini qurumların fəaliyyətlərinin məqsədyönlüyünü, səmərəliliyini və planlılığını yüksəltməyə, profilaktika sisteminin müasir reallıqlar nəzərə almaqla qurmağa imkan verir.

8) Regional cinayətkarlığın kompleks kriminoloji analizi əsasında əldə edilən və kriminoloji əhəmiyyət kəsb edən informasiya cinayətkarlığın modelləşdirilməsi və proqnozlaşdırılmasında, cinayətkarlığın «coğrafi», proqnostik, dinamik kriminoloji modelinin qurulmasında istifadə edilə bilər.

Tədqiqatın iki paraqrafdan ibarət olan «**Regional cinayətkarlığın əsas kəmiyyət-keyfiyyət xarakteristikalarının müqayisəli-kriminoloji analizi**» adlanan **ikinci fəslində** qloballaşma şəraitində dünyada və onun ayrı-ayrı regionlarında cinayətkarlığın müasir vəziyyəti təhlil edilmiş, mövcud meyllər və qanunauyğunluqlar üzə çıxarılmışdır. Dissertasiyanın bu fəslində Azərbaycanda və onun regionlarında cinayətkarlığın kriminoloji analizinə xüsusi önəm verilmiş, ölkənin iqtisadi rayonlarında cinayətkarlığın vəziyyəti, strukturu və dinamikası sistemli şəkildə təhlil edilmiş, regionlarda təşəkkül tapmış mövcud kriminoloji vəziyyətin qiymətləndirilməsi həyata keçirilmişdir.

**Ikinci fəslin 1-ci paraqrafı «Qloballaşma şəraitində dünyada və regionlarda cinayətkarlığın müasir vəziyyəti və meylləri»** adlanır. Bu paraqrafda göstərilir ki, mürəkkəb və ziddiyyətli məzmuna malik qloballaşma prosesi dünyəvi miqyas alan bir sıra risklərin, dünyanı təhdid edən neqativ hadisələrin, o cümlədən cinayətkarlığın sistemli və detallaşdırılmış kriminoloji təhlilini, cinayətkarlığın beynəlxalq və regional problemlərinin öyrənilməsini zəruri edir. Qloballaşmanın təsiri altında cinayətkarlığın struktur və dinamikasında, kəmiyyət və keyfiyyət parametrlərində bir sıra dinamik dəyişikliklər baş vermiş, cinayətkarlıq getdikcə daha da mütəşəkkilləşmiş, transmilliləşmiş, korrupsiyalaşmış və intellektuallaşmışdır. Professor D.A.Şestakov bununla bağlı qeyd edir ki, kommunikasiyaların, iqtisadiyyatın və maliyyənin qloballaşması prosesinin davam etdiyi və daha da sürətləndiyi şəraitdə cəmiyyətdə istehsal olunanların tərkib hissəsi olan cinayətkarlıq insanların və mütəşəkkil qurumların kriminal fəaliyyətinin məcmu nəticəsi kimi müasir şəraitdə fərqli

struktura sahib olur. Planetar şəkildə inkişaf edən cinayətkarlığın yeni keyfiyyəti tədricən kriminologiyada da dərk olunur» [1].

BMT-nin rəsmi sənədlərində dünyada əhalinin illik artımı 1-1,2%, cinayətkarlığın illik artımı isə təxminən 5% təşkil etdiyi bildirilir. Son 30 ildə dünyada cinayətkarlıq 4 dəfə, o cümlədən keçmiş SSRİ ərazisində və ABŞ-da 8, Böyük Britaniya və İsveçdə 7, Fransada 6, Almaniyada 4, Yaponiyada isə 2 dəfə artmışdır. Lakin XXI əsrin əvvəllərindən başlayaraq dünyanın bir çox ölkələrində cinayətlərin sayının azalması, səviyyəsinin aşağı düşməsi meyli müşahidə olunur. Bu meyl ən açıq şəkildə latentlik dərəcəsi az olan cinayətlərdə – qəsdən adam öldürmənin səviyyəsinin dinamikasında özünü göstərir. Məsələn qəsdən adam öldürmə əmsalı Avstraliya, Argentina, Macarıstan, Almaniya, ABŞ, Finlandiya, Fransa, Yaponiya və digər ölkələrdə əhəmiyyətli dərəcədə azalmışdır.

Bəzən cinayətkarlığın səviyyəsinin aşağı düşməsi meylini cinayətlərin ənənəvi olaraq qeydiyyatdan gizlədilməsi ilə izah etməyə çalışırlar. Belə bir halın doğurdan da mövcud olduğunu qeyd etməklə yanaşı, trendin ümumdünya xarakteri qismən düzgün olan belə sadə izahla məhdudlaşmağa imkan vermir. Kriminoloqlar dünyanın ən müxtəlif qitələrində yerləşən ölkələrdə cinayətkarlığın səviyyəsinin aşağı düşməsini aşağıdakı amillərlə izah edirlər: 1) Qeydə alınmış cinayətkar əməllərin əhəmiyyətli hissəsi «küçə cinayətkarlığı» təşkil edir – həyat, sağlamlıq, cinsi toxunulmazlıq, mülkiyyət əleyhinə cinayətlər və s. «Ağyaxalıqlıların» (məmurların, biznesmenlərin və digərlərinin) cinayətkarlığı yüksək latentli olmaqla qeydə alınmış cinayətkarlığın az hissəsini təşkil edir. «Küçə cinayətkarlığının» əsas subyektləri yeniyetmələr və gənclərdir. Onlar isə son onillikdə İnternetin virtual dünyasına «üz tutmuşlar». Burada onlar görüşür, sevir, dostlaşır, nifrət edir, «öldürür» və «ölür» (əlbəttə ki, kompyuter oyunlarında), dələduzluq hərəkətləri törədirlər və sair. Bununla da şüurlu surətdə və ya bilmədən özünütəsdiqə, özünüreallaşdırmağa, təcavüzə və zorakılığa olan «tələbatlarını» ödəyirlər; 2) cinayətkarlığın «yenidən strukturlaşması» baş verir, «adi» cinayətkarlıq, az öyrənilən və demək olar ki, qeydə alınmayan, postmodern dövrünün yüksəklatentli cinayət növləri ilə (məsələn, kibercinayətkarlıq) sıxışdırıb çıxarılır; 3) cinayətkarlığın səviyyəsinin aşağı düşməsinin səbəblərindən biri də müasir texniki təhlükəsizlik vasitələrindən (videokameralar, mühafizə siqnalizasiyaları və s.) kütləvi şəkildə istifadə nəticəsi kimi yüksək «sekrütezizasiya» (mühafizə olunma) da ola bilər[2].

---

[1] Шестаков Д.А. Глобально американизированная преступность и постлиберальная криминология//Российский криминологический взгляд. 2010, №1, с.331.

[2] Гилинский Я.И. Преступность в постсовременном мире//www.ng.ru

Azərbaycanla müqayisədə bir çox Avropa ölkələrində də ümumən cinayətkarlığın, habelə qəsdən adam öldürmə, oğurluq, soyğunçuluq, quldurluq və zorlama kimi ağır cinayətlərin səviyyəsi, əhalinin 100 min nəfərinə düşən cinayətlərin sayı, yəni cinayətkarlıq əmsalı, bəzi istisnalarla, olduqca yüksəkdir (bax cədvəl 1).

Cədvəl 1.

Avropa ölkələri üzrə əhalinin hər 100 min nəfərinə düşən ümumi cinayətlərin və bəzi cinayət növlərinin sayı (2012-ci il üzrə)

| Ölkələr | Əhali-nin sayı (nəfər) | Əhalinin hər 100 min nəfərinə düşən ümumi cina-yətlərin sayı | Qəsdən adam öldürmə | Oğurluq | Soy-soyğun-çuluq | Quldurluq | Zorlama |
|---|---|---|---|---|---|---|---|
| *Azərbaycan* | 9235085 | 236 | 2,1 | 45,8 | 2,7 | 1,4 | 0,2 |
| *İsveç* | 9482855 | 14791 | 1,0 | 1029 | 103 | 927 | 58,6 |
| *Belçika* | 110944850 | 9678 | 1,7 | 895 | 1762 | 718 | 26,6 |
| *İsveçrə* | 7954662 | 9433 | 1,0 | 843 | 66 | 117 | 8,7 |
| *Danimarka* | 5580516 | 7898 | 0,9 | 1939 | 73 | 191 | 6,4 |
| *Finlandiya* | 5401267 | 7876 | 2,3 | 359 | 31 | 615 | 12,4 |
| *Almaniya* | 80327900 | 7466 | 0,8 | 456 | 60 | 630 | 8,9 |
| *Lüksemburq* | 524853 | 7171 | 2,5 | 573 | 67 | 476 | 11,7 |
| *Hollandiya* | 16730348 | 6812 | 1,1 | 428 | 84 | 352 | 8,8 |
| *Avstriya* | 8408121 | 6518 | 0,5 | 1283 | 55 | 48 | 9,3 |
| *Norveç* | 4985870 | 5486 | 0,6 | 490 | 37 | 64 | 20,6 |
| *İspaniya* | 46818219 | 4846 | 0,9 | 420 | 1188 | 177 | 4,5 |
| *Macarıstan* | 9931925 | 4755 | 1,0 | 377 | 32 | 124 | 2,3 |
| *İtaliya* | 59394207 | 4746 | 0,6 | 190 | 108 | 110 | 7,6 |
| *Sloveniya* | 2055496 | 4448 | 0,6 | 746 | 24 | 108 | 3,9 |
| *Portuqaliya* | 10542398 | 3825 | 1,2 | 463 | 192 | 312 | 3,5 |
| *İslandiya* | 319575 | 3676 | 0,3 | 1117 | 19 | 346 | 24,7 |
| *Estoniya* | 1325217 | 3080 | 5,2 | 40 | 54 | 8 | 9,2 |
| *Polşa* | 38538447 | 2906 | 1,3 | 354 | 50 | 2 | 4,0 |
| *Çexiya* | 10505445 | 2899 | 0,9 | 525 | 45 | 162 | 4,6 |
| *Türkiyə* | 74724269 | 2549 | 3,3 | 161 | 11 | 218 | 1,5 |
| *Yunanıstan* | 11123034 | 1745 | 1,0 | 416 | 42 | 69 | 2,2 |
| *Qazaxıstan* | 16673000 | 1713 | 7,7 | 1070 | 122 | 10 | 13,8 |
| *Slovakiya* | 5404322 | 1672 | 1,5 | 282 | 25 | 48 | 2,6 |
| *Rusiya* | 143056383 | 1608 | 9,3 | 694 | 77 | 13 | 3,1 |
| *Belarus* | 9465150 | 1079 | 4,1 | 45 | 25 | 3 | 1,0 |
| *Moldova* | 3559541 | 1029 | 6,3 | 402 | 33 | 5 | 10,1 |
| *Ukrayna* | 45453282 | 982 | 4,6 | 530 | 43 | 7 | 1,1 |

Təhlil göstərir ki, Azərbaycan, 28 Avropa ölkəsi arasında əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı ən az olan ölkədir. Belə ki, 2012-ci ildə Azərbaycanda cinayətkarlıq əmsalı 236 olmuşdur. Müqayisə üçün qeyd edək ki, ölkəmizdə cinayətkarlıq əmsalı İsveçdən 62 dəfə, Belçikadan 41 dəfə, İtaliyadan 20 dəfə, Türkiyədən 11 dəfə, Qazaxıstanda və Rusiyadan təxminən 7 dəfə azdır. Bu isə digər hallarla yanaşı, ölkəmizdə hüquq-mühafizə orqanları tərəfindən cinayətkarlıqla, onun ən təhlükəli forma və növləri ilə ciddi və qətiyyətlə mübarizə aparıldığını bir daha təsdiq edir. 2009-2013-cü illərdə Azərbaycan və MDB dövlətlərində cinayətkarlığın vəziyyəti və səviyyəsinin (100 min əhaliyə düşən cinayətlərin sayını göstərən cinayətkarlıq əmsalı) müqayisəli təhlili də bir sıra xarakterik cəhətləri, bir sıra meylləri və qanunauyğunluqları üzə çıxarmağa imkan vermişdir (cədvəl 2).

Cədvəl 2

2009-2013-cü illərdə Azərbaycan Respublikasında cinayətkarlığın vəziyyətinin və cinayətkarlıq əmsalının MDB dövlətləri ilə müqayisəli göstəriciləri

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| | | | | | |
| *Azərbaycan* | 22830<br>257,2 | 23010<br>255,9 | 24263<br>235,6 | 21897<br>266,2 | 22381<br>237,7 |
| *Rusiya Federasiyası* | 2994820<br>2110,5 | 2628799<br>1852,4 | 2302168<br>1609,3 | 2404807<br>1694,5 | 1106249<br>1539,1 |
| *Ukrayna* | 434678<br>934,6 | 500902<br>1089,8 | 443665<br>973,8 | 515833<br>1129,8 | 563560<br>1237,2 |
| *Belarus* | 151293<br>1564,3 | 140920<br>1458,0 | 102127<br>1078,1 | 132052<br>1391,4 | 96676<br>1021,5 |
| *Özbəkistan* | 89398<br>320,8 | 90050<br>321,6 | 90660<br>302,6 | 90617<br>311,1 | 90152<br>298,1 |
| *Qazaxıstan* | 121667<br>766,2 | 131896<br>808,8 | 287681<br>1713,8 | 206801<br>1249,6 | 359844<br>2113,3 |
| *Moldova* | 25655<br>693,2 | 33402<br>902,5 | 36615<br>989,3 | 35124<br>949,0 | 38157<br>1031,0 |
| *Qırğızıstan* | 29715<br>560,7 | 33528<br>618,8 | 28847<br>532,4 | 30520<br>549,8 | 27217<br>480,6 |
| *Tacikistan* | 12408<br>237,5 | 14542<br>278,4 | 16593<br>209,6 | 16884<br>218,5 | 18336<br>226,3 |

Belə ki, 2009-cu ildə 9 MDB ölkəsi arasında cinayətkarlıq əmsalı Azərbaycanda yalnız Tacikistanla müqayisədə yüksək olmuşdur. Azərbaycanla müqayisədə cinayətkarlıq əmsalı Rusiya Federasiyasında 8.2 dəfə, Ukraynada 3.6 dəfə, Belarusda 6.1 dəfə, Qazaxıstanda 3 dəfə, Moldovada 2.7 dəfə, Qırğızıstanda 2.2 dəfə yüksək olmuşdur (cədvəl 2).

2013-cü ildə cinayətkarlıq səviyyəsi Azərbaycanda 237.7, Rusiyada 1539.1, Ukraynada 1237.2, Belarusda 1021.5, Özbəkistanda 298.1, Qazaxıstanda 2113.3, Moldovada 1031, Qırğızıstanda 480.6, Tacikistanda isə 226.3 olmuşdur. Beləliklə, 2009-cu illə müqayisədə cinayətkarlıq səviyyəsi Azərbaycanda, RF-da, Belarusda, Özbəkistanda, Qırğızıstan və Tacikistanda azalmış, Ukrayna, Qazaxıstan və Moldovada isə uyğun olaraq 20%, 2.2 dəfə və 48.71% artmışdır.

Tədqiqatın bu fəslinin **«Azərbaycanda və ölkənin iqtisadi rayonlarında cinayətkarlığın vəziyyəti, strukturu və meylləri» adlanan ikinci paraqrafında** ümumən Azərbaycanda, həmçinin respublikanın Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Aran, Quba-Xaçmaz, Dağlıq Şirvan, Kəlbəcər-Laçın, Yuxarı Qarabağ və Naxçıvan kimi iqtisadi rayonlarında cinayətkarlığın habelə qəsdən adam öldürmə, sağlamlığa ağır zərər vurma, quldurluq, soyğunçuluq, dələduzluq, vergi ödəməkdən yayınma, narkotik vasitələrin qanunsuz dövriyyəsi, xuliqanlıq və digər cinayət növlərinin vəziyyəti, strukturu və dinamikasının, səviyyəsinin statistik-kriminoloji analizi aparılmış, hər bir iqtisadi rayon üçün xarakterik olan əsas meyllər müəyyən edilmişdir. Aparılmış kriminoloji təhlil əsasında Azərbaycanın iqtisadi rayonlarının kriminogenlik səviyyəsi baxımından tipologiyası verilmişdir. Lakin cinayətkarlıq da cəmiyyət kimi canlı və dəyişkəndir. cəmiyyətdə baş verən dəyişikliklər cinayətkarlığın inkişafına təsir edir. Qloballaşma və ictimai münasibətlərin dinamik inkişafı yeni-yeni cinayət növlərinin yaranmasına, cinayətkarlığı səciyyələndirən keyfiyyət və kəmiyyət göstəricilərinin dəyişməsinə səbəb olmuşdur.

2009-2015-ci illər üzrə Azərbaycanın iqtisadi rayonları üzrə cinayətkarlığın səviyyəsini, yəni əhalinin 100 min nəfərinə düşən cinayətlərin sayını əks etdirən cinayətkarlıq əmsalının statistik-kriminoloji təhlili göstərir ki, yalnız Abşeron rayonunda 7 illik dövr üzrə orta cinayətkarlıq əmsalı (313), cinayətkarlığın səviyyəsi respublika üzrə hesablanmış və ortalaşdırılmış uyğun göstəricidən (253,1) yüksək olmuşdur. Ən aşağı cinayətkarlıq səviyyəsi Naxçıvan (6,1) və Kəlbəcər-Laçın (7,9) iqtisadi rayonlarında, ən yüksək cinayətkarlıq səviyyəsi isə Abşeronla yanaşı, Lənkəran (191,1), Aran (187,8) və Quba-Xaçmaz (179,3) rayonlarında müşahidə olunmuşdur.

Cədvəl 3.

Azərbaycanın iqtisadi rayonlarında 2009-2015-ci illər üzrə cinayətkarlığın vəziyyəti və cinayətkarlıq əmsalı (əhalinin 100 min nəfərinə düşən cinayətlərin sayı)

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| *Azərbaycan üzrə:* | 22830<br>254 | 23010<br>252 | 24263<br>263 | 21897<br>234 | 22381<br>236 | 24607<br>256 | 26916<br>277 |
| *Bakı üzrə* | 11108 | 11096 | 11724 | 10018 | 10984 | 12286 | 12693 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 538,0 | 530,0 | 552,0 | 466,0 | 503,0 | 557,0 | 570,0 |
| *O cümlədən iqtisa-di rayonlar üzrə:* | | | | | | | |
| *1)Abşeron* | 1516<br>293,0 | 1761<br>337,0 | 1726<br>326,0 | 1571<br>292,0 | 1622<br>298,0 | 1555<br>282,0 | 2023<br>363,0 |
| *2)Gəncə-Qazax* | 2046<br>173,0 | 1909<br>160,0 | 2077<br>172,0 | 1986<br>163,0 | 1793<br>147,0 | 2042<br>165,0 | 2412<br>192,0 |
| *3)Şəki-Zaqatala* | 601<br>105,0 | 611<br>106,0 | 687<br>118,0 | 689<br>117,0 | 854<br>144,0 | 814<br>136,0 | 1062<br>175,0 |
| *4)Lənkəran* | 1599<br>192,0 | 1664<br>197,0 | 1768<br>207,0 | 1459<br>168,0 | 1390<br>156,0 | 1723<br>193,0 | 2053<br>227,0 |
| *5)Quba-Xaçmaz* | 1041<br>211,1 | 995<br>200,0 | 916<br>181,0 | 923<br>180,0 | 755<br>146,0 | 814<br>155,0 | 968<br>182,0 |
| *6)Aran* | 3562<br>196,0 | 3691<br>201,0 | 3838<br>206,0 | 3687<br>195,0 | 3432<br>179,0 | 3684<br>190,0 | 3971<br>204,0 |
| *9)Dağlıq Şirvan* | 374<br>132,0 | 357<br>124,0 | 378<br>129,0 | 343<br>116,0 | 302<br>101,0 | 330<br>108,0 | 442<br>143,0 |
| *10)Naxçıvan* | 23<br>6,0 | 18<br>4,0 | 33<br>8,0 | 23<br>5,0 | 23<br>5,0 | 39<br>9,0 | 29<br>6,0 |
| *11)Yuxarı Qarabağ* | 331<br>54,0 | 371<br>59,0 | 434<br>69,0 | 452<br>71,0 | 343<br>53,0 | 446<br>68,0 | 525<br>79,0 |
| *12)Kəlbəcər-Laçın* | 22<br>10,0 | 13<br>6,0 | 22<br>9,0 | 15<br>6,0 | 18<br>7,0 | 16<br>6,0 | 27<br>11,0 |

2009-cu illə müqayisədə, 2015-ci ildə Quba-Xaçmaz və Naxçıvan iqtisadi rayonları istisna olmaqla, digər bütün iqtisadi rayonlarda, habelə ümumilikdə Azərbaycan üzrə cinayətkarlıq səviyyəsi (əmsalı) yüksəlmişdir.

2013-2015-ci illər ərzində Azərbaycanın iqtisadi rayonlarında qeydə alınmış cinayətlərin sayında artım müşahidə olunmuşdur.

2015-ci ildə Abşeron iqtisadi rayonunda qeydə alınan cinayətlərin strukturunda oğurluq 25%, dələduzluq 8,6%, vergi ödəməkdən yayınma 9,3%, narkotik vasitələrin və psixotrop maddələri hazırlama, istehsal etmə, saxlama, daşıma, göndərmə və ya satma 13,44%, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma 7,7% təşkil etmişdir.

Abşeron iqtisadi rayonun Azərbaycan üzrə qeydə alınmış cinayətlərin strukturunda payı son illərdə artmış və 7,5% olmuşdur. Abşeron iqtisadi rayonunda son yeddi il üzrə ortalaşdırılmış cinayətkarlıq əmsalı Sumqayıtda 297.7, Abşeron rayonunda isə 342.4 olmuşdur. Göründüyü kimi Abşeron rayonu iqtisadi rayonun ən kriminogen bölgəsidir və burada cinayətkarlığın səviyyəsi ümumrespublikası səviyyəsindən yüksəkdir.

Azərbaycan üzrə qeydə alınmış cinayətlərin ümumi sayında Gəncə-Qazax iqtisadi rayonunun «payı» 2015-ci ildə 8,9% olmuşdur. Bu iqtisadi rayonda cinayətkarlığın strukturunda oğurluq 20,4%, dələduzluq 11,8%, vergi ödəməkdən yayınma 6,7%, narkotik vasitələri hazırlama, istehsal etmə, saxlama, daşıma, göndərmə və ya satma ilə bağlı cinayətlər isə 5,0% təşkil etmişdir. İqtisadi rayon üzrə orta cinayətkarlıq səviyyəsi 170 olmuşdur. Regionun tərkibində olan Gəncədə orta cinayətkarlıq əmsalı 196,6, Qazaxda 198 və Goranboyda 196,1 olmuşdur ki, bu da iqtisadi rayon üzrə orta səviyyədən yüksəkdir. İqtisadi rayonun tərkibində olan bütün rayonlar və şəhərlər üzrə cinayətkarlıq əmsalı ümumrespublika üzrə uyğun göstəricidən aşağı olmuşdur. İqtisadi rayonun ən kriminogen bölgəsi Gəncə və Goranboy, kriminogenlik səviyyəsi ən aşağı olan ərazilər isə Naftalan (21,1) və Daşkəsəndir (66,1).

Şəki-Zaqatala iqtisadi rayonun Azərbaycan üzrə qeydə alınmış cinayətkarlıqda «payı» 2006-cı ildə 3,7%, 2015-ci ildə isə 3,9% olmuşdur. İqtisadi rayonda cinayətkarlığın strukturunda oğurluq əməllərinin xüsusi çəkisi 16,1%, dələduzluğun 13,6%, vergi ödəməkdən yayınmanın 10,2%, xuliqanlıq əməllərinin 6,1%, narkotik vasitələri hazırlama, istehsal etmə, saxlama, daşıma, göndərmə və ya satma ilə bağlı cinayətlərin 9,7%, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma əməllərinin isə xüsusi çəkisi 5,7% təşkil etmişdir. Şəki-Zaqatala iqtisadi rayonunda 2009-2015-ci illər üzrə orta cinayətkarlıq əmsalı 128,7-dir. Regionun bütün rayonları və ümumilikdə iqtisadi rayon üzrə cinayətkarlıq səviyyəsi ümumrespublika səviyyəsində xeyli aşağıdır. Eyni zamanda iqtisadi rayona daxil olan Balakən (176,6) və Qaxda (147,7) cinayətkarlıq səviyyəsi iqtisadi rayon üzrə ümumi səviyyədən yüksəkdir. Regionun ən kriminogen rayonu Balakən, kriminogenlik səviyyəsi daha aşağı olan bölgə isə Şəkidir (106,6).

Lənkəran iqtisadi rayonunda qeydə alınmış cinayətlərin Azərbaycan üzrə cinayətlərin ümumi sayında xüsusi çəkisi 2009-cu ildə 7,59%, 2015-ci ildə isə 7,63% olmuşdur. cinayətkarlığın strukturunda oğurluq 17,51%, dələduzluq 12,8%, vergi ödəməkdən yayınma 8,4%, xuliqanlıq 3,3%, narkotik vasitələri hazırlama, istehsal etmə, saxlama, daşıma, göndərmə və ya satma ilə bağlı cinayətlər 16,8%, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma 3,65% təşkil etmişdir. Lənkəran iqtisadi rayonunda orta cinayətkarlıq əmsalı (191,1), ümumrespublika göstəricisindən azdır. İqtisadi rayona daxil olan yalnız Astarada (338,3) cinayətkarlıq səviyyəsi ümumrespublika səviyyəsini üstələmişdir. Digər rayonlarda cinayətkarlıq səviyyəsi istər respublika, istərsə də iqtisadi rayon səviyyəsindən aşağıdır.

2009-cu illə müqayisədə 2015-ci ildə cinayətkarlıq səviyyəsi Astara, Lənkəranda (2 dəfədən çox) və Masallıda artmış, Lerikdə (3 dəfəyə yaxın) və Yardımlıdan (2 dəfədən çox) və Cəlilabadda azalmışdır.

Quba-Xaçmaz iqtisadi rayonunda qeydə alınan cinayətlərin respublika üzrə qeydə alınmış cinayətlərin strukturunda xüsusi çəkisi 2006-cı ildə 5,4%, 2015-ci ildə isə 3,6% olmuşdur.

İqtisadi rayonda cinayətkarlığın strukturunda oğurluq 18,2%, dələduzluq 6,9%, vergi ödəməkdən yayınma 13,0%, xuliqanlıq 3,8%, narkotik vasitələri hazırlama, istehsal etmə, saxlama, daşıma, göndərmə və ya satma ilə bağlı cinayətlər 9,2%, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ilə bağlı əməllər isə 8,8% təşkil etmişdir. İqtisadi rayonda və onun inzibati-ərazi vahidləri qismində çıxış edən rayonlarda cinayətkarlıq səviyyəsi Azərbaycan üzrə uyğun orta göstəricilərdən aşağı olmuşdur. Eyni zamanda iqtisadi rayonun Qusar (189,6), Xaçmaz (185,1) və Siyəzən (231,4) rayonlarında cinayətkarlıq səviyyəsi iqtisadi rayon üzrə ümumi səviyyədən yüksək olmuşdur. İqtisadi rayonun ən kriminogen ərazisi Siyəzən, cinayətkarlıq səviyyəsi ən aşağı olan bölgələr isə Şabran (161,6) və Qubadır (162,8).

Aran iqtisadi rayonunda qeydə alınan cinayətlərin Azərbaycan üzrə cinayətkarlığın strukturunda xüsusi çəkisi 2006-cı ildə 16,2%, 2015-ci ildə isə 14,7% olmuşdur. 2015-ci ildə iqtisadi rayonda qeydə alınan cinayətlərin 19,1%-i oğurluq, 9,6%-i dələduzluq, 8,7%-i vergi ödəməkdən yayınma, 4,7%-i xuliqanıq, 14,75%-i narkotik vasitələri hazırlama, istehsal etmə, saxlama, daşıma, göndərmə və ya satma ilə bağlı cinayətlər, 15,7%-i yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ilə bağlı cinayətlər təşkil etmişdir. İqtisadi rayonda orta cinayətkarlıq əmsalı (187,8) respublika üzrə uyğun göstəricidən az olsa da, iqtisadi rayona daxil olan bəzi rayonlarda bu əmsallar, yəni cinayətkarlığın səviyyəsi istər iqtisadi rayon, istərsə də respublika səviyyəsindən yüksəkdir. Bu, Biləsuvar (359,7) rayonu və Şirvan (341,8) şəhəridir. İqtisadi rayonun tərkibində olan Ağcabədi (193,7), Bərdə (191,3), Salyan (237), Yevlax (218), Mingəçevir (228), Sabirabad (192,6) və Hacıqabul rayonlarında orta cinayətkarlıq səviyyəsi iqtisadi rayon üzrə ümumi səviyyədən yüksək olmuşdur.

İqtisadi rayonun ən kriminogen bölgəsi Şirvan və Biləsuvar, kriminogen durum səviyyəsi ən aşağı olan rayon isə Ağdaşdır (117,1).

Dağlıq Şirvan iqtisadi rayonunda qeydə alınan cinayətlərin Azərbaycan üzrə cinayətlərin sayında xüsusi çəkisi 2006-cı ildə 2,04%, 2015-ci ildə isə 1,64% olmuşdur. 2015-ci ildə iqtisadi rayonda qeydə alınmış cinayətkarlığın strukturunda oğurluq 21,5%, vergi ödəməkdən yayınma 26,7%, xuliqanlıq 3,4%, narkotik vasitələri hazırlama, istehsal etmə, saxlama, daşıma, göndərmə və ya satma ilə bağlı cinayətlər 5,4%, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma 8,8%, dələduzluq 1,58% təşkil etmişdir.

Ümumən iqtisadi rayonda, habelə onun tərkibində daxil olan rayonlarda cinayətkarlığın səviyyəsi Azərbaycan üzrə uyğun göstəricidən xeyli (2

dəfədən çox) aşağıdır. Yalnız İsmayıllı rayonunda cinayətkarlıq səviyyəsi (139,4) iqtisadi rayon üzrə ümumi səviyyədən (121,8) yüksək olmuşdur.

İqtisadi rayonlar arasında yalnız Abşeron (313) üzrə orta cinayətkarlıq əmsalı Azərbaycan üzrə uyğun göstəricidən (253) yüksək olmuşdur.

Bütövlükdə iqtisadi rayonlara daxil olan rayon və şəhərlər üzrə (Bakı istisna olmaqla) Azərbaycanda cinayətkarlığın səviyyəsinin ümumrespublika səviyyəsindən çox olmaqla ölkənin ən kriminogen bölgələri Biləsuvar (359,7), Abşeron (342.4) və Astara (338,3) rayonları, həmçinin Şirvan (341,8) və Sumqayıt (297.7) şəhərləridir.

Azərbaycanın iqtisadi rayonları üzrə apardığımız kriminoloji təhlil ümumən cinayətkarlığın, habelə onun ayrı-ayrı ağır və xüsusilə ağır növlərinin bir sıra kriminoloji xarakteristikalarını və səciyyəvi xüsusiyyətlərini, xarakterik meyllərini qeyd etməyə əsas verir:

- cinayətkarlığın strukturunda tamah yönümlü kriminal əməllərin üstünlük təşkil etməsi;
- son illərdə regional cinayətkarlığın strukturunda oğurluq və dələduzluq cinayətlərinin, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı kriminal əməllərin, habelə yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə bağlı cinayətlərin xüsusi çəkisinin artması;
- cinayətkarlığın və onun bəzi növlərinin mövsümi xarakter daşıması (cinayətkarlığın səviyyəsinin cənub regionlarında və yay mövsümündə əhəmiyyətli dərəcədə yüksəlməsi);
- cinayətkarlığın urbanizasiyası;
- cinayətkarlıqda feminizasiya meyllərinin müşahidə olunması, qadınlar tərəfindən törədilən cinayətlərin strukturunda ağır və xüsusilə ağır cinayətlərin xüsusi çəkisinin artması, bu növ cinayətlərin sosial təhlükəlilik dərəcəsinin yüksəlməsi;
- cinayətkarlığın iqtisadi və mütəşəkkil formalarının simbiozu;
- cinayətkarlığın bəzi növlərində (insan alveri, kibercinayətlər, narkobiznes və s.) transmillilləşmə meyllərinin qeydə alınması;
- 2006-cı illə müqayisədə 2015-ci ildə xarici vətəndaşlar tərəfindən və onlara qarşı törədilən cinayətlərin sayında azalmanın, lakin 2011-ci ildən etibarən xarici vətəndaşlar tərəfindən törədilən cinayətlərin sayında artımın müşahidə olunması;
- qrup halında törədilən cinayətlərin sayının, bu növ cinayətkarlığın strukturunda mütəşəkkil cinayətkar dəstələr tərəfindən törədilən kriminal əməllərin xüsusi çəkisinin artması;
- əmək qabiliyyətli işləməyən və oxumayan şəxslər tərəfindən törədilən cinayətlərin sayının 2006-cı illə müqayisədə 2015-ci ildə azalması,

lakin 2012-2015-ci ildə bu növ kriminal əməllərin sayında artımın müşahidə olunması;

- sərxoş vəziyyətdə törədilən cinayətlərin sayında artımın qeydə alınması.

Regional cinayətkarlığın analizi onun aşağıdakı əsas xarakteristikalarını və meyllərini müəyyən etməyə imkan vermişdir: nisbətən yüksək olmayan cinayətkarlıq əmsalı (əhalinin 100 min nəfərinə düşən cinayətlərin sayı); 2005-2009-cu illərlə müqayisədə 2010-2015-ci illər üzrə cinayətlərin sayının artım templəri ölkə üzrə analoji göstəricidən çox olması; son illərdə oğurluq və dələduzluq kimi ənənəvi mülkiyyət əleyhinə olan cinayətlərin xüsusi çəkisinin artımı ilə yanaşı, iqtisadi yönümlü cinayətlərin sayının da artması; ayrı-ayrı iqtisadi rayonlarda cinayətkarlığın strukturunda mülkiyyət əleyhinə cinayətlərin, ilk növbədə oğurluğun səviyyəsinin daha yüksək olmaqla, bu növ cinayətlər üzrə ölkə üzrə səviyyəni xeyli üstələməsi; son illərdə dələduzluğun kəmiyyət-keyfiyyət parametrlərində ciddi dəyişikliklərin baş verməsi, dələduzluğun xüsusi çəkisinin və səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsi; cinayətlərin əsas hissəsinin, xüsusən də soyğunçuluq, quldurluq, vergi ödəməkdən yayınma, xuliqanlıq, avtonəqliyyat vasitələrinin qaçırılması və sair kimi cinayətlərin əsasən şəhərlərdə və şəhər tipli qəsəbələrdə törədilməsi; yeniyetmələr tərəfindən törədilən cinayətlərin xüsusi çəkisinin o qədər də yüksək olmaması; yeniyetmələr arasında qrup halında törədilən cinayətlərin və zorakılıqla müşayiət olunan kriminal əməllərin səviyyəsinin yüksəlməsi; narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin artım meylləri ilə xarakterizə olunması və s.

**«Regional cinayətkarlığı doğuran səbəb və şəraitlər, amillər kompleksi»** adlanan və iki paraqrafdan ibarət olan **üçüncü fəsildə** ümumən cinayətkarlığın səbəb və şəraitlərinə, onu determinə edən amillər kompleksinə elmi-nəzəri baxış həyata keçirilmiş, Azərbaycanda iqtisadi rayonlarında, şəhərlərində və kənd yerlərində cinayətkarlığı doğuran səbəbiyyət kompleksi, kriminal əməllərin baş verməsinə kömək edən şəraitlər, məcmu halda regional cinayətkarlığı şərtləndirən sosial-iqtisadi, təşkilati-texniki, coğrafi-hüquqi, mənəvi-psixoloji və sair xarakterli amillər kompleksi müəyyən edilmişdir.

Dissertasiya işinin **üçüncü fəslinin birinci paraqrafı «cinayətkarlığın səbəb və şəraitlərinə, onu determinə edən amillər kompleksinə ümumi elmi-nəzəri baxış»** adlanır. Bu paraqrafda qeyd olunur ki, cinayətkarlıq kimi sosial-hüquqi hadisənin kökləri əsrlərin dərinliyində, insanın daxilini səciyyələndirən ümmanda itir. Məhz buna görə də çox zaman bu hadisəni doğuran bütün səbəbləri, hər bir səbəbin mahiyyətini, onun məzmununu müəyyən etmək mümkün olmur. Elə buna görə də qədim dövrlərdən başlayaraq bu günə qədər filosoflar, kriminoloqlar, sosioloqlar, psixoloqlar,

elmi zəka sahibləri səbəb və nəticə, səbəbiyyət, hadisələrin qarşılıqlı əlaqə və bağlılığı haqqında sonu görünməyən mübahisələr aparırlar. Səbəbiyyət əlaqəsi – obyektiv hadisə olmaqla, artıq baş verərək digərlərinin iradəsindən asılı olmur. Eyni zamanda, səbəbiyyətin idrakının həmişə subyektiv xarakter daşıdığı da qeyd edilməlidir. Səbəbli əlaqə və asılılıqların, müəyyən bir hadisə və ya prosesi doğuran, onu şərtləndirən səbəblərin izahında müxtəlif fikir və mövqelərin, yanaşma tərzlərinin, konsepsiyaların mövcudluğu da məhz bununla izah edilə bilər. Bir sözlə bu məsələdə hadisələrin qarşılıqlı asılılığının nəzərdən keçirildiyi və təhlil edildiyi «koordinatlar sisteminin» düzgün seçilməsindən çox şey asılıdır.

Professor İ.M.Rəhimov, cinayət və cəzanın səbəblərini geniş, əhatəli və sistemli şəkildə araşdıraraq qeyd edir: «cinayətin səbəbləri haqqında təlim müxtəlif nəzəriyyələr, orijinal baxışlar, hətta filosofların, hüquqşünasların, psixoloqların, sosioloqların, təbiblərin, din xadimlərinin və yazıçıların maraqlı fikirləri ilə dolu çox böyük bir tarixi inkişaf yolu keçmişdir. Problemə nəzər saldıqda onların bəziləri çox ibtidai, hətta anlaşılmayan və əsassız görünür. Buna baxmayaraq cinayətin səbəblərinin araşdırılmasında yuxarıda qeyd edilən amillər çox böyük maraq doğurur. Nəticədə bu gün cinayətin törədilməsini doğuran səbəblər haqqında hamı tərəfindən qəbul edilən aşağıdakı yanaşmalar mövcuddur: normativ-hüquqi, fəlsəfi, etik, dini, antropoloji, sosioloji və s. yanaşmalar bura daxildir»[3] (70, s.43-44).

Professor A.İ.Dolqova qeyd edir ki, cinayətkarlığın yaranmasını və mövcudluğunu tam və dolğun şəkildə izah edən hər hansı bir ümumi nəzəriyyə, «əsas», «başlıca» səbəb mövcud deyildir[4].

Müasir şəraitlərdə cinayətkarlığın səbəbiyyət kompleksinə təsir edən faktorlar qismində qeyd etmək olar: əhalinin tərkibində iqtisadi və sosial mövqe baxımından pis vəziyyətdə olan müəyyən insanlar qrupunun, autsayderlərin, marginalların və digərlərinin mövcudluğu; əhalinin müəyyən hissəsində spirtli içkilərə aludəçiliyin həyat normasına çevrilməsi; narkotiklərin istehlakının və deməli narkomaniyanın sabit şəkildə artması və yayılması; adətlərə və vərdişlərə çevrilmiş, geniş yayılmış mental, psixoloji vərdişlər və onlara əsaslanan münaqişəli vəziyyətlərin həllinin və eqoistik məqsədlərə nail olmanın, özünə təsdiqin üsulları; cinayətlərə birmənalı olmayan münasibət; cəmiyyətəzidd yönümlü qeyri-formal qruplarda birləşmiş yeniyetmələr və gənclərdən ibarət özünəməxsus kriminal «ehtiyatın» hələ də mövcud olması; əhalinin müəyyən hissəsinin şüurunda və davranışında bu və ya digər dərəcədə dərin kök salmış kriminal submədəniyyətin bəzi elementləri; hələ də kökünün kəsil-

[3] Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı, 2014, s.43-44.

[4] Преступность и реформы в России//Под ред. А.И.Долговой. М.: ИНФРА-НОРМА, 1998, с.45.

məsi mümkün olmayan sosial ziddiyyətlərin və münaqişələrin mövcudluğu; bütövlükdə cinayətkarlığın dominantı kimi kriminal davranışın iqtisadi (əmlak) istiqamətliliyi; cinayətkar davranışın, onun formalarının, istifadə olunan üsulların, vasitələrin və s. həddən artıq mütəhərrikliyi və variativliyi; cinayətkarlıqla bağlı proseslərin yüksək ətalətliliyi; cinayətkarlığın «nəzarətə yatmaması», o mənada ki, cinayətkarlıq cəmiyyət üçün zəruri olan dərəcədə nəzarət təsirinə yatmır, cəmiyyət isə məlum olduğu kimi ilk növbədə onu qəbulu mümkün olan, sosial dözülən səviyyəyə qədər endirməyə səy göstərir. Biz hələ ədəbiyyatda cinayətkarlığın norma adlandırılmasından danışmırıq.

İstənilən cəmiyyətdə, o cümlədən də Azərbaycan cəmiyyətində cinayətlərin mövcudluğu, onların xarakteri və səviyyəsi sosial, iqtisadi, fərdi-psixoloji, təşkilati-texniki, demoqrafik, ideoloji, və sair xarakterli bir-biri ilə qarşılıqlı bağlı olan hadisələrin və proseslərin məcmusu, səbəb və şəraitlərin bütöv kompleksi ilə şərtlənir. Cinayətlərin səbəbləri əbədi və daimi olmaqla bütün dövrlərə, xalqlara, dövlətlərə, hüquq sistemlərinə xasdır. Məhz buna görə də cinayətkarlığın tam ləğvinin mümkünlüyü haqqında söhbətlərin heç bir əsası yoxdur və utopik xarakter daşıyır. cinayətkarlıqla mübarizə aparmaq, cinayətkar davranışın qarşısını almaq, kriminal mühitə önləyici təsir göstərməklə müəyyən qədər məhdudlaşdırmaq, səviyyəsini aşağı salmaq, bəzən də minimum endirmək, cinayətkarlığın inkişafının neqativ meyllərini aradan qaldırmaq mümkündür, lakin təəssüf ki, bu neqativ hadisənin kökünü tam kəsmək mümkün deyildir.

Tədqiqatın **üçüncü fəslinin «Azərbaycanda regional cinayətkarlığın determinantları» adlanan ikinci paraqrafında** respublikanın iqtisadi rayonlarında şəhərlərində və kənd rayonlarında cinayətkarlığı doğuran səbəb və şəraitlər, kriminal əməlləri determinə edən amillər kompleksi empirik materiallar, o cümlədən xüsusi olaraq hazırlanmış anket-sorğular əsasında araşdırılaraq təhlil edilmiş, regional cinayətkarlığın determinantları müəyyən edilərək sistemləşdirilmişdir.

Empirik tədqiqatlar əsasında söyləmək olar ki, regional cinayətkarlığın artımına, onun səviyyəsi, strukturu və dinamikasında dəyişikliklərin baş verməsinə rayonun tipi, əhalinin sıxlığı, nizamlanmamış miqrasiya, işsizlik səviyyəsi, əmək qabiliyyətli işləməyən və oxumayan gənclərin yüksək xüsusi çəkisi, narkotizasiya və alkoqolizasiya dərəcəsi, əhalinin strukturunda yeniyetmə və gənələrin xüsusi çəkisinin çox olması, məcburi köçkünlərin və qaçqınların bəzi rayonlarda, kənd və şəhər yaşayış məntəqələrində yüksək xüsusi çəkisi, iqtisadi böhran, digər sosial-iqtisadi və demoqrafik amillər, habelə ərazi-coğrafi xüsusiyyətlər təsir göstərir (qeyd olunan məsələlərlə bağlı əhalinin müxtəlif təbəqələri və ekspertlər arasında keçirilən sorğuların nəticələri dissertasiya işinin əlavələr hissəsində verilmişdir).

Aparılmış elmi-nəzəri və empirik araşdırmalar, sosioloji sorğuların nəticələri, ekspert qiymətləri, problemlə bağlı hüquqşünas-alimlərin, kriminoloqların, sosial nəzarət orqanları əməkdaşlarının fikir və mövqelərinin öyrənilməsi və ümumiləşdirilməsi əsasında Azərbaycanın cinayətkarlıq səviyyəsi yüksək olan bir sıra regionlarında, iqtisadi rayonlarında və şəhərlərində kriminal əməllərin baş verməsini determinə edən amillər qismində aşağıdakıları qeyd etməyə əsas verir:

1) sosial problemlər fonunda işsizlərin sayının artması bəzən cinayətkarlığın sosial bazasının genişlənməsinə səbəb olur;

2) alkoqolizm və narkomaniya ilə cinayətkarlığın intensivliyi, strukturu və xarakteri arasında sıx korrelyasiya asılılığı mövcuddur;

3) iqtisadi rayonlarda, Bakı, Sumqayıt, Gəncə və digər şəhərlərdə kriminogen şərait ölkənin digər rayon və şəhərlərindən, xarici ölkələrdən gələn qeyri-leqal və məcburi miqrantların cinayətkar aktivliyi hesabına ağırlaşır;

4) regionlarda əhalinin ərazicə paylanması bir çox cəhətdən cinayətkarlığın məkanca paylanmasının mənzərəsini müəyyən edir. Əhalinin sıxlığı kriminogen amillərə aiddir. Əhalinin sıxlığı sosial mühitin «sıxlığını» ifadə etməklə münaqişəli, viktimoloji şəraitlərin baş vermə ehtimalını yüksəltməklə son nəticədə cinayətkarlığın artımına gətirir;

5) Mənəvi ideallaın təhrif olunması və cinayətkarlığın sayının artması, miqyaslarının genişlənməsi arasında da müəyyən bağlılıq vardır.

6) Regionların demoqrafik xüsusiyyətləri ilə cinayətkarlıq arasında müəyyən əlaqə mövcuddur. Cinayət məsuliyyəti yaradan yaş həddində olan kişi cinsli şəxslərin sayındakı fərqlər ayrı-ayrı rayonlarda və şəhərlərdə cinayətkarlığın intensivliyində və xarakterində fərqlərin yaranmasında özünü göstərir;

7) son illərdə cinayətkarlıqda feminizasiya meylləri, «gəncləşmə» meylləri müşahidə olunmağa başlamışdır;

8) müxtəlif bölgələrin, regionların sosial-iqtisadi inkişafı, coğrafi mövqeyi, relyefi, iqlim şəraiti, təbii-bioloji resursları, əhalinin təhsil və mədəni səviyyəsi kifayət qədər rəngarəngdir və heç şübhəsiz bütün bunlar məcmu halda regional cinayətkarlığa təsir edən amillər kateqoriyasına aid edilə bilər.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı»nın 2.1-ci bəndində («yoxsulluğun profili, səviyyəsi və göstəriciləri») qeyd olunur ki, şəhərlərdə böyük insan kütləsinin cəmləşməsi, yaşayış sahəsinin sosial normalardan qat-qat aşağı olması, şəhər mühitində sosial-psixoloji, iqtisadi xarakterli problemlərin çoxluğu, ailə üzvləri, qonşular arasında münaqişələrin, məişət zəminində baş verən hüquq pozuntularının, həyat və sağlamlıq əleyhinə cinayətlərin artmasını doğurur.

Dissertasiya işinin **dördüncü fəsli «Regional cinayətkarlığın proqnozlaşdırılmasının elmi-nəzəri, metodoloji və metodiki əsasları»** adlanır. İki paraqrafdan ibarət olan bu fəsildə regional cinayətkarlığın proqnozlaşdırılmasının, regional kriminoloji proqnozların qurulmasının əhəmiyyəti göstərilmiş, regional kriminoloji proqnozlaşdırmanın məqsəd və vəzifələri müəyyən olunmuşdur. Müəllif tərəfindən həmçinin regional cinayətkarlığın proqnozlaşdırılmasının metodologiyası nəzərdən keçirilmiş, proqnozlaşdırma metodları sistemləşdirilmişdir. Qeyd olunanlarla yanaşı, bu fəsildə regional cinayətkarlığın qısamüddətli və ortamüddətli proqnozlarının qurulmasının metodiki əsasları işlənib hazırlanmışdır.

**Dördüncü fəslin birinci paraqrafı «Regional cinayətkarlığın proqnozlaşdırılmasının əhəmiyyəti, məqsəd və vəzifələri»** adlanır. Bu paraqrafda qeyd olunur ki, müasir sosial-hüquqi münasibətlər şəraitində, qloballaşan dünyada sosial-hüquqi hadisələrin, o cümlədən cinayətkarlığın və onun struktur elementi olan regional cinayətkarlığın proqnozlaşdırılması getdikcə cəmiyyət üçün zəruri olan fəaliyyət növlərindən birinə çevrilməkdədir. Y.Qolik yazır: «Bizim günlərdə regional cinayətkarlıq kifayət qədər intensiv öyrənilir. Lakin bu zaman daha bir aspekt tamamilə yaddan çıxarılır və diqqət yetirilmir: Gələcəkdə cinayətkarlıq necə dəyişəcəkdir. Bundan bizim bütün həyatımız asılıdır»[5].

Regional cinayətkarlığın kriminoloji proqnozlaşdırmanın predmetinə regional cinayətkarlıq və onun ayrı-ayrı növlərinin və formalarının vəziyyəti, strukturu və dinamikası, meylləri; ölkənin şəhərlərində, iqtisadi rayonlarında, digər inzibati-ərazi vahidlərində cinayətkarlığı determinə edən amillər kompleksi, cinayətkarın şəxsiyyəti, regional kriminoloji siyasət və s. daxildir. Regional cinayətkarlığın kriminoloji proqnozlaşdırmanın obyektləri qismində isə çıxış edə bilər: müəyyən konkret-tarixi şəraitlərdə cinayətkarlıq, onun ayrı-ayrı növləri və qrupları (mütəşəkkil cinayətkarlıq, terrorizm; narkotik vasitələrin qanunsuz dövriyyəsi və s.); dünyada, ölkədə, regionda kriminogen vəziyyətin inkişafı variantları; ən təhlükəli cinayətkar tipinin gözlənilən sosial obrazı; gələcəyin cinayətin qurbanının ehtimal olunan, yəni gözlənilən sosial portreti və risk qrupu . Regional cinayətkarlığın proqnozlaşdırılması sisteminin elmi-nəzəri, metodoloji əsaslarının inkişaf etdirilməsi və bu sahədə informasiya təminatının yaradılmasına istiqamətlənən mexanizmlərin işlənib hazırlanması üçün aşağıdakılar zəruri hesab edilməlidir: regional cinayətkarlıqla mübarizə sahəsində həyata keçirilən tədbirlər sistemində kriminoloji proqnozlaşdırmanın

---

[5] Голик Ю. Региональная преступность часть общей преступности // «Актуальные проблемы криминологического исследования региональной преступности». Материалы III международной научно-практической конференции. Баку, 2016.- с.32-33.

yerinin, rolu və əhəmiyyətinin müəyyən edilməsi; regional cinayətkarlığın proqnozlaşdırılmasının anlayış-kateqoriya aparatının dəqiqləşdirilməsi; regional cinayətkarlığın proqnozlaşdırılmasının əsas prinsiplərinin müəyyən edilməsi və əsaslandırılması; müqayisəli tədqiqatlar nəticəsində Azərbaycanın ayrı-ayrı regionlarında cinayətkarlığın vəziyyəti, struktur və dinamikasında regional fərqlərin tədqiqi, bu fərqlərin yaranmasını şərtləndirən səbəb və şəraitlərin, amillər kompleksinin, onların cinayətkarlığın kəmiyyət-keyfiyyət parametrlərinə təsir xüsusiyyətlərinin müəyyən edilməsi; kriminoloji proqnozların sosial-iqtisadi, psixoloji, siyasi və demoqrafik, təşkilati-texniki amillərdən asılılığının, digər bilik sahələrində (demoqrafiya, sosiologiya, iqtisadiyyat və s.) proqnozlaşdırma üzrə mövcud elmi-nəzəri və metodiki bazadan istifadə imkanlarının və hüdudlarının müəyyən edilməsi; regional cinayətkarlığın proqnozlaşdırılmasının metodoloji əsaslarının işlənib hazırlanması, qısa, orta və uzunmüddətli kriminoloji proqnozların qurulmasında istifadəsi mümkün olan metodların sistemləşdirilməsi, onların üstün və çatışmayan cəhətlərinin müəyyən edilməsi; regional cinayətkarlığın proqnozlaşdırılması sisteminin metodiki əsaslarının inkişaf etdirilməsi və bu sahədə informasiya təminatının yaradılmasına istiqamətlənən mexanizmlərin işlənib hazırlanması; regional cinayətkarlıqla mübarizə sahəsində proqnozlaşdırmanın ən məqbul, rasional və effektiv kompleks metodikaların işlənilməsi; regional cinayətkarlığın vəziyyəti, strukturu və dinamikası üzrə proqnozların qurulması üçün effektiv texnologiya və metodlar sisteminin müəyyən edilərək əsaslandırılması; hüquq-mühafizə strukturlarında və ilk növbədə daxili işlər orqanlarında proqnostik fəaliyyətin təkmilləşdirilməsi üzrə təkliflərin və tövsiyələrin işlənib hazırlanması; daxili işlər və prokurorluq orqanlarının strukturunda tərkibində digərləri ilə yanaşı xüsusi kriminoloji biliklərə malik olan mütəxəssislərin, kriminoloq-analitiklərin də olduğu xüsusi bölmələrin nəzərdə tutulması və s.

Dissertasiya işinin **dördüncü fəslinin «Regional cinayətkarlığın proqnozlaşdırılmasının metodologiyası və metodiki əsasları» adlanan ikinci paraqrafında** cinayətkarlığın qısamüddətli və ortamüddətli proqnozlaşdırılmasının metodoloji və metodiki əsaslarının trendlərin ekstrapolyasiyası, korrelyasiya-reqression analiz, riyazi modelləşdirmə, şəbəkə modelləşdirməsi, matrisaların qurulması, dinamik sıraların hamarlaşdırılması, sürüşən ortalar metodu, eksponensial hamarlama kimi formalizasiya olunan metodlar, habelə, ssenarilərin qurulması kimi fərdi ekspert qiymətləri metodu, o cümlədən kollektiv ekspert qiymətləri (Delfi metodu, ideyaların kollektiv generasiyası metodu) metodlar kompleksindən ibarət olduğu göstərilmişdir.

Cinayətkarlığın qısamüddətli proqnozlaşdırılması metodikası ekstrapolyasiya, modelləşdirmə, matrisaların tərtibi, dinamik sıraların hamarlaşdırılması kimi metodlardan istifadəyə əsaslanmaqla aşağıdakı mərhələlərdən

ibarətdir: 1) Son 5-10 ili əhatə edən cinayət statistikasının məlumatları əsasında cinayətkarlıq matrisalarının, uyğun qrafiklərin, diaqramların və histoqramların tərtibi və onlar əsasında cinayətkarlığın keçmiş və hazırda mövcud olan vəziyyətinin analizi; 2) cinayətkarlığın kriminoloji proqnostik modelinin qurulması; 3) proqnozlaşdırılan ilin yanvarında cinayətlərin gözlənilən, ehtimal olunan sayının müəyyən edilməsi; 4) qarşıdakı bir və ya bir neçə il və bu ilin (illərin) hər ayı üzrə cinayətkarlığın qısamüddətli proqnozlarının bir neçə variantlarının tərtibi; 5) məruzə-proqnozun tərtibi; 6) tərtib edilmiş proqnozların verifikasiyası, yəni yoxlanılması.

İşdə qeyd olunan bu mərhələlərin hər birinin mahiyyət və məzmunu, bu zaman həyata keçirilməli olan əməliyyatlar ardıcıllığı, alqoritmi açılmışdır. Regional cinayətkarlığın qısa və ortamüddətli proqnozlarının qurulması şərti-sxematik olaraq aşağıdakı mərhələlərdən ibarət olmalıdır:

- Obyektiv olaraq təşəkkül tapmış vəziyyətin analizi, ictimai həyatın müxtəlif sahələrinin qanunauyğunluqlarının və meyllərini müəyyən edilməsi, regional cinayətkarlığa təsir edən amillərin öyrənilməsi və formalizasiyası əsasında gələcəyin konturları ümumi cizgilərdə cızılır. Bu halda mövcud qanunauyğunluqlar, meyllər gələcəyə ekstrapolyasiya edilir. Bu proqnoz öncəgörmənin inkişafı zəncirində ilkin halqadır. Bu ilkin proqnoz olduqca təxminidir, lakin proqnozlaşdırmanın birinci mərhələsi kimi zəruridir, çünki tədqiqatçının sərəncamına ilkin informasiyanı təqdim edir.

- Regional cinayətkarlıqla mübarizə aparan orqanlar proqnozda qeydə alınan inkişaf nəticələrini passiv şəkildə gözləməklə məhdudlaşmamalıdırlar. Proqnozlaşdırılan hadisələrin qarşısının alınması üzrə profilaktik tədbirlərin qəbulu zəruridir. Bununla da proqnoz «öz-özünü dağıdan» xarakteri alır.

- Regional cinayətkarlığın qısa və ortamüddətli proqnozlaşdırılması prosesinin növbəti mərhələsi cinayətkarlığın gələcək vəziyyətinin korrektə edilməsidir. Bu korrektə də hazırda mövcud olan, təsir göstərən qanunauyğunluqların və meyllərin gələcəyə ekstrapolyasiyası yolu ilə edilir. Bunun üçün bir sıra amillərin təsir dərəcəsi nəzərə alınmaqla ilkin proqnozların bəzi elementlərinə və onların təsiri nəticələrinə düzəlişlər edilir. Nəticədə yeni, lakin belə demək mümkündürsə, dəqiqləşdirilmiş proqnoz alınır ki, bu da daha böyük dəqiqlik və mötəbərliklə gələcəyi əks etdirməyə imkan verir. Çünki onda istər subyektiv, istərsə də obyektiv amillər nəzərə alınır.

Tədqiqatın **«Azərbaycanda regional cinayətkarlığın profilaktikasının konseptual əsasları»** adlanan və iki paraqrafdan ibarət olan **beşinci fəslində** regional cinayətkarlığın qarşısının alınmasının əsas istiqamətləri və xüsusiyyətləri nəzərdən keçirilərək hərtərəfli və sistemli şəkildə araşdırılmış, regional cinayətkarlığın profilaktikası üzrə kompleks proqramların strukturu və əsas elementləri müəyyən edilmiş, mahiyyəti açılmışdır.

Bu fəslin **birinci paraqrafı «Regional cinayətkarlığın qarşısının alınmasının (profilaktikasının) əsas istiqamətləri və xüsusiyyətləri»** adlanır. Bu paraqrafda regional cinayətkarlığın profilaktikasının, bir fəaliyyət növü kimi bir sıra əsas prinsiplər üzərində qurulmalı və həyata keçirilməli olduğu göstərilmişdir. Regional cinayətkarlığın profilaktikasının əsas prinsipləri qismində aşağıdakılar xüsusi olaraq qeyd edilməlidir: qanunilik; elmi əsaslılıq; planlılıq; komplekslilik; sistemlilik, ümumsosial profilaktika subyektləri arasında funksiyaların dəqiq paylanması; ümumsosial profilaktikanın xüsusi-kriminoloji və fərdi profilaktika ilə uzlaşdırılması; sosial, iqtisadi, demoqrafik vəziyyətin dəyişdirilməsinə yönələn metodların, üsul və vasitələrin demokratikliyi; profilaktik fəaliyyət sahəsində vəzifələrin, səlahiyyətlərin və resursların, yəni maddi-texniki və təşkilati xarakterli imkanların uyğunluğu; ümumdövlət maraqlarının regional maraqlardan üstünlüyü; hər bir konkret regionun spesifik xüsusiyyətlərinin nəzərə alınması; regionda həyata keçirilən tədbirlərin və planların digər regionlarda həyata keçirilən tədbirlərlə uzlaşdırılması; strateji və taktiki qərarların önləyici xarakter daşıması.

Cinayətlərin qarşısının alınmasının hüquqi təminінин mühüm vasitəsi kriminoloji ekspertizadır. Qanun layihələrinin və ya qüvvədə olan normativ hüquqi aktların kriminoloji ekspertizası cinayətkarlıq üzərində sosial-hüquqi nəzarətin elmi təmininin ayrılmaz tərkib hissəsi olmalıdır. Kriminoloji ekspertiza institutunun formalaşması və inkişafının əhəmiyyətini nəzərə alaraq kriminoloji ekspertizanın hüquqi tənzimlənməsi probleminin qanunvericilik səviyyəsində həlli tələb olunur. Belə bir mühüm vəzifənin həlli üçün MDB ölkələrinin, məsələn, Belarus və Qazaxıstan respublikalarının kriminoloji ekspertizanın hüquqi əsaslarının inkişafı sahəsində təcrübəsindən istifadə edilə bilər. Qanunvericilik səviyyəsində «Qanunların, digər normativ hüquqi aktların və onların layihələrinin sosial-hüquqi ekspertizası haqqında» Qanunun qəbulu və bu qanunda kriminoloji ekspertiza haqqında xüsusi bölmənin nəzərdə tutulması zəruri hesab edilir. Məlum olduğu kimi kriminologiya elmində artıq müstəqil elmi istiqamət statusu almış kriminoloji təhlükəsizlik məsələlərinə bir sıra tədqiqatlar həsr olunmasına baxmayaraq, bu sahədə həyata keçirilən kriminoloji araşdırmalar problemin nəzəri əsaslandırılması və onun innovativ potensialının yüksək olduğunun qeyd olunması ilə bitib.

Hesab edirik ki, kriminoloji təhlükəsizlik konsepsiyası cinayətkarlıq, onu determinə edən və ya ona antikriminogen təsir göstərən proseslər və hadisələr üzərində dövlət və ictimai nəzarətin təminini tənzimləyən uyğun normativ hüquqi aktlarda öz əksini tapmalıdır. Kriminoloji təhlükəsizliyin təminini həyata keçirən subyektlər, onların vəzifələri və funksiyaları, hüquqları və sair məsələlər kompleksi qanunvericilik səviyyəsində təsbit edilməsi vacibdir. Kriminoloji təhlükəsizlik strategiyası daha qlobal strategiya-ların,

məsələn milli təhlükəsizlik strategiyasının tərkib hissəsinə çevrilməlidir. Regional cinayətkarlığın, o cümlədən şəhər cinayətkarlığının kriminoloji analizi, proqnozlaşdırılması və profilaktikası sahəsində mövcud problemlərin effektiv həlli üçün cinayət statistikasının təşkili və aparılmasının elmi-metodiki və təşkilati-texniki əsaslarının təkmilləşdirilməsi də zəruridir. Azərbaycanda cinayətlərin, digər hüquq pozuntularının qeydiyyatı sistemində bir sıra dəyişikliklərin edilməsi, qeydə alınan ilkin statistik uçot göstəriciləri sırasına respublika əhəmiyyətli şəhərlərdə, kənd yerlərində, küçələrdə, digər ictimai yerlərdə törədilən cinayətlər barədə məlumatlar ayrıca olaraq göstərilməlidir. Bu məlumatlar isə ümumiləşdirildikdən sonra hər il nəşr olunan «Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar» məcmuəsində xüsusi cədvəllər və qrafiklər, diaqramlar şəklində verilməlidir. Bundan başqa, qeyd olunan statistik məcmuədə həmçinin regional cinayətkarlığın, xüsusən də iqtisadi rayonlar, şəhərlər, kənd əhalisinin üstünlük kəsb etdiyi rayonlar üzrə cinayətkarlığın vəziyyəti, strukturu, dinamikası və səviyyəsi, qeyd olunan ərazi vahidlərində törədilən bir sıra cinayətlərin, o cümlədən qəsdən adam öldürmə, oğurluq, dələduzluq, soyğunçuluq, quldurluq, insan alveri, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyası, korrupsiya və sair kimi kriminal əməllər, bu cinayətləri törədən şəxslər, ayrı-ayrı inzibati-ərazi vahidlərində əhalinin viktimlik səviyyəsi barədə məlumatların əks olunması da məqsədəuyğun hesab edilməlidir.

Dissertasiya işinin beşinci fəslinin «Regional cinayətkarlığın qarşısının alınmasının kompleks proqramları: mahiyyəti, strukturu, əsas elementləri» adlanan ikinci paraqrafında qeyd olunur ki, son illərdə bir sıra MDB ölkələrdə, o cümlədən Rusiya, Belarus, Özbəkistan və Qazaxıstanda cinayətkarlıqla mübarizə üzrə istər ümumdövlət, istərsə də regional səviyyədə xeyli proqramlar hazırlanaraq qəbul edilmişdir. Lakin onların reallaşdırılması prosesi və ən əsası, nəticələri qənaətbəxş hesab edilə bilməz. Söyləmək olar ki, hazırda regional cinayətkarlığa məqsədyönlü və effektiv əks təsir tədbirləri sisteminin reallaşdırılması və kriminal proseslərin inkişafına sosial nəzarətin təmini üçün potensial mövcuddur. Belə ki, hüquq-mühafizə sistemi yeni sosial-iqtisadi şəraitlərdə müəyyən iş təcrübəsi toplamış, hüquq-mühafizə fəaliyyətinin texniki bazası əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Sosial nəzarət orqanlarının vahid informasiya təminatı sistemi də yaradılmaqdadır. İdarələrarası və beynəlxalq əməkdaşlıq mexanizmləri də işə düşmüşdür. Cinayətkarlıqla bağlı vəziyyətin ciddiliyinə baxmayaraq hələ də bu mürəkkəb, çoxaspektli, sistemli sosial-hüquqi hadisənin qarşısının alınması üzrə vahid konsepsiya, xüsusi qanun mövcud deyildir. Profilaktik fəaliyyətin hüquqi tənzimlənməsi sahəsində bitkin qanunvericilik bazasının yaradılmaması dövlətin bu vacib funksiyasının reallaşdırılmasında çətinliklər və boşluqlar yaradır. Müasir reallıqların, cinayət-

karlığın və digər hüquq pozuntularının vəziyyəti, strukturu və dinamikasında baş verən neqativ meylləri, nəzərə alaraq «Hüquq pozuntularının qarşısının alınması sisteminin əsasları haqqında» Azərbaycan Respublikasının qanunun işlənib hazırlanması zəruriliyi əsaslandırılmış və belə bir Qanunun layihəsi, müəllif variantı təklif edilmişdir. Dissertasiya işində müəllif tərəfindən işlənib hazırlanmış və 4 fəsil və 28 maddədən ibarət olan «Hüquq pozuntularının qarşısının alınması sisteminin əsasları haqqında» Azərbaycan Respublikasının Qanununun layihəsinin struktur təhlili aparılmış, layihəsinin əsas struktur elementlərinin, ayrı-ayrı bölmələrdə nəzərdə tutulmuş tədbirlərin şərhi verilmişdir. Belə ki, təklif olunan Qanun layihəsində hüquq pozuntularının qarşısının alınmasının prinsipləri sırasında insan və vətəndaş hüquq və azadlıqlarının prioritetliyi; qanunçuluq; humanizm; aşkarlıq; fasiləsizlik, ardıcıllıq; obyektivlik, tətbiq edilən tədbirlərin elmi əsaslılığı və tamlığı və s. göstərilmişdir (maddə 3). Qanun layihəsinin 6-cı maddəsində hüquq pozuntularının qarşısının alınmasının sosial-iqtisadi, demoqrafik və digər kriminoloji amillərin aşkarlanması, qiymətləndirilməsi və proqnozlaşdırılması; cinayətkarlığın, onu ağır və xüsusilə ağır forma və növlərinin profilaktikasının hüquqi tənzimlənməsi; cinayətkarlığın qarşısının alınması sahəsində ümumrespublika və regional proqramların işlənilməsi; bu sahədə fəaliyyət göstərən profilaktika subyektlərinin qarşılıqlı əlaqəli fəaliyyətinin effektivliyinin artırılması; cinayətləri və digər hüquq pozuntularını törətməyə meylli olan şəxslərin aşkarlanması; qanunvericilikdə nəzərdə tutulan inzibati, cinayət-prosessual, cəza-icra və əməliyyat-axtarış xarakterli xüsusi qarşısınıalma tədbirlərinin tətbiqi; hüquq pozuntularının qarşısının alınmasında vətəndaş cəmiyyətinin daha geniş iştirakının təmini; hüquq pozuntularının, xüsusilə də oğurluq, dələduzluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qəsdən adam öldürmə və sağlamlığa ağır zərər vurma, soyğunçuluq və quldurluq, insan alveri, ailə-məişət zorakılığı və s. kimi cinayətlərin qarşısının alınması sahəsində mütəmadi əsaslarla monitorinqin həyata keçirilməsi və digər əsas istiqamətlər qeyd olunmuşdur. Qanun layihəsində, həmçinin hüquq pozuntularının qarşısının alınmasının əsas formaları qismində hüquqi maarifləndirmə və hüquqi təbliğat; profilaktik söhbət; profilaktik qeydiyyat; sosial adaptasiya; sosial reabilitasiya; resosializasiya və digərləri göstərilmişdir. Hüquq pozuntularının profilaktikası üzrə hüquqi, sosial, iqtisadi, təşkilati, texniki, psixoloji və s. tədbirlər kompleksini özündə birləşdirən və profilaktika sahəsində fəaliyyəti tənzimləyən qanunvericilik bazasına və onun təkmilləşdirilməsinə əsaslanan «Hüquq pozuntularının profilaktikası üzrə regional kompleks Proqramın» qəbulu və həyata keçirilməsi məqsədəuyğun sayıla bilər.

Cinayətkarlığın qarşısının alınması və profilaktikası üzrə regional proqramların işlənib hazırlanması zamanı aşağıdakı amillərin nəzərə alınması

zəruri hesab edilməlidir: konkret inzibati-ərazi vahidinin ölçüsü, onun coğrafi mövqeyi, mərkəzi icra hakimiyyəti orqanlarına, ölkənin böyük sənaye və mədəniyyət mərkəzlərinə yaxınlığı və ya uzaqlığı; regionda əhalinin məskunlaşması xüsusiyyətləri (sayı, sıxlığı, artım tempi, milli tərkibi, miqrasiya və urbanizasiya səviyyəsi, şəhər və kənd əhalisinin nisbəti); etnik qeyri-bircinsliklə, mənəvi dəyərlərin, tarixi mədəniyyətin, həyat tərzinin müxtəlifliyi ilə şərtlənən amillər; infrastrukturun vəziyyəti, unikal təbiət kompleksinin və qida ehtiyatlarının mövcudluğu; digər regionlar və ölkələrlə sosial-mədəni və ticarət əlaqələrinin, daxili və beynəlxalq turizmin inkişafı üçün müəyyən potensialın mövcudluğu və s.

Cinayətkarlığın tədqiqi, proqnozlaşdırılması və qarşısının alınması üzrə kompleks proqram çərçivəsində aşağıdakı konkret vəzifələrin həll edilməsi nəzərdə tutula bilər: cinayətkarlığın kriminoloji tədqiqi, proqnozlaşdırılması və profilaktikasının elmi-nəzəri əsaslarının, metodologiya və metodikasının işlənib hazırlanması; latent və qeydə alınan cinayətkarlığın vəziyyəti, struktur və dinamikasının, inkişaf qanunauyğunluqlarının və meyllərinin müqayisəli kriminoloji təhlili; regional cinayətkarlığın səbəb və şəraitlərinin, bu ərazi vahidlərində kriminal əməlləri determinə edən sosial, iqtisadi, demoqrafik, psixoloji, təşkilati və digər amillərin tədqiqi; hər bir konkret ərazi vahidində cinayətkarlığın, ayrı-ayrı cinayət növlərinin inkişaf meyllərinin, strukturunun və dinamikasının proqnozlaşdırılması. Belə təsəvvür olunur ki, regional proqnozlar və regionda cinayətkarlığın inkişaf meylləri nəzərə alınmaqla cinayətkarlığın profilaktikası üzrə regional proqram çərçivəsində aşağıdakı əsas vəzifələr qrupu reallaşdırılmalıdır: 1) regionlarda fəaliyyət göstərən dövlət orqanlarının fəaliyyətinin təşkilati və hüquqi əsaslarının təkmilləşdirilməsi (regionda vəziyyətin proqnozu və qiymətləndirilməsi metodikasının yaradılması; maraqlı müəssisə və idarələrin fəaliyyətinin effektivliyinin yüksəldilməsi üzrə tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi, idarələrarası komissiyaların yaradılması və onların işinin təşkili; cinayətkarlığın qarşısının alınması sahəsində qanunvericilik və digər normativ aktların layihələrinin hazırlanması, qüvvədə olan qanunvericiliyin və onun tətbiqi praktikasının analizi); 2) regionda cinayətkar əməllərin, konkret cinayət növlərinin qarşısının alınması üzrə praktiki tədbirlərin planlaşdırılması, işlənib hazırlanması və həyata keçirilməsi; 3) nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə nəzarətin təmini; 4) cinayətkarlığa qarşıdurma sahəsində regionlararası, əgər lazım gələrsə beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi və koordinasiyası (cinayətkarlığın regional qarşısının alınması probleminin müxtəlif aspektləri üzrə informasiya mübadiləsi; regionda cinayətkarlığın qarşısının alınması üzrə idarələrarası tədbirlər üzrə fəaliyyət planlarının işlənib hazırlanması və s.). Qeyd olunanlarla yanaşı, şəhər cinayətkarlığının səviyyəsi,

strukturu və dinamikasının aşağı salınması, şəhər mühitində kriminal əməlləri doğuran halların, onların səbəb və şəraitlərinin neytrallaşdırılmasına və aradan qaldırılmasının ümumi istiqamətlərindən, bu sahədə strateji məqsədlərdən və vəzifələrdən ibarət «Təhlükəsiz şəhər» Konsepsiyasının və bu əsasda «Bakı şəhərinə 2017-2025-ci illərdə hüquq pozuntularının profilaktikası, cinayətkarlıqla, onun ən təhlükəli növləri ilə mübarizə və vətəndaşların təhlükəsizliyinin təmini üzrə Dövlət Proqramı»nın işlənib hazırlanması və həyata keçirilməsi də zəruri hesab edilməlidir.

«Təhlükəsiz şəhər» Konsepsiyasında Bakı və onun inzibati rayonlarında kriminoloji şəraitin analizindən çıxış edərək cinayətkarlığın qarşısının alınmasının bir sıra prioritet istiqamətləri nəzərdə tutulmalıdır:

- məişət zorakılığı və xuliqanlıqla mübarizənin aktivləşdirilməsi yolu ilə qəsdən adam öldürmə, sağlamlığa ağır və az ağır zərər vurma kimi kriminal əməllərinin qarşısının alınması üzrə kompleks tədbirlərin həyata keçirilməsi;
- terrorizmə və ekstremizmə qarşı əks təsirin həyata keçirilməsi; potensial olaraq terror təhdidi yüksək olan obyektlərin, habelə şəhərin həyat əhəmiyyətli infrastrukturunun mühafizəsi, bu istiqamətdə tədbirlərin effektivliyinin daha da artırılması;
- bütün növ oğurluqların, ilk növbədə, nəqliyyat vasitələrinin oğurluğunun, həmçinin nəqliyyat vasitələrinin sürücülərinə soyğunçuluq, quldur basqınlarının profilaktikası;
- mütəşəkkil cinayətkar dəstələrin, xüsusən də adam oğurluğu və insan alveri ilə, narkobizneslə məşğul olan kriminal qurumların fəaliyyətinin qarşısının alınması və profilaktikası üzrə əməliyyat-axtarış işinin gücləndirilməsi;
- yeniyetmələr və gənclər tərəfindən narkotik və alkoqol sərxoşluğu vəziyyətində törədilən cinayətlərin qarşısının alınması üzrə genişmiqyaslı kompleks tədbirlərin reallaşdırılması;
- qrup halında törədilən cinayətkarlıqla mübarizənin yeni və innovativ xarakter daşıyan forma və metodlarının, üsul və vasitələrinin işlənib hazırlanması;
- əvvəllər məhkum olunan şəxslər tərəfindən törədilən, xüsusən də peşəkarlıq elementləri daşıyan cinayətlərlə mübarizənin gücləndirilməsi;
- risk qrupuna daxil olan və heç bir yerdə işləməyən və oxumayan şəxslərin uçotunun və onların davranışına fərdi nəzarətin təşkili yolu ilə bu şəxslər tərəfindən törədilən cinayətlərin qarşısının alınması;
- əcnəbilər tərəfindən və onlara qarşı törədilən kriminal əməllərin qarşısının alınmasının və bu sahədə viktimoloji profilaktikanın səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyən olunması və s.

Hesab edirik ki, cinayətkarlığın, o cümlədən regional cinayətkarlığın profilaktikası üzrə proqramların işlənib hazırlanması ilə yanaşı, kənd sakin-

lərinin üstünlük kəsb etdiyi rayonlarda, inzibati-ərazi vahidlərində cinayətlərin qarşısının alınmasına və profilaktikasına istiqamətlənən xüsusi strategiya (konsepsiya) hazırlanmalı və bu strategiya və ya konsepsiya əsasında qeyd olunan ərazi vahidlərində cinayətkarlığın profilaktikasına istiqamətlənən xüsusi proqramlar və fəaliyyət planları işlənilməlidir. Cinayətkarlıqla, o cümlədən regional cinayətkarlıqla mübarizədə, kriminal əməllərin profilaktikasında dekriminallaşdırma və kriminallaşdırma da önəmli rol oynayır. Qeyd edək ki, Azərbaycanda bu sahədə artıq bir sıra işlər görülmüş, müasir şəraitlərdə müəyyən əməllərin ictimai təhlükəlilik dərəcəsi nəzərə alınmaqla onlara görə cinayət məsuliyyətini nəzərdə tutan uyğun normalar Cinayət Məcəlləsinə daxil edilmiş, bəzi əməllər isə cinayət məsuliyyəti doğuran əməllər kateqoriyasından çıxarılmışdır (məsələn, «döymə» əməlinə görə məsuliyyət nəzərdə tutan 132-ci maddə ləğv edilmişdir). Hesab edirik ki, dekriminallaşdırma ilə bağlı işlər davam etdirilməli, bu zaman xarici ölkələrin, xüsusən də Azərbaycanla qonşu olan ölkələrin (İran, Türkiyə, Gürcüstan, Rusiya, Qazaxıstan və s.) təcrübəsi nəzərə alınmalıdır.

Fikrimizcə, Azərbaycan Respublikasının CM-də bir sıra əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur ki, hazırda mövcud olan şəraitdə bu əməllərin ictimai təhlükəliliyi o qədər də yüksək deyildir. Məhz bu baxımdan həmin əməllərə görə inzibati məsuliyyətin nəzərdə tutulması daha məqsədəmüvafiqdir.

Həddən artıq kriminallaşmanın da bəzən neqativ amil qismində çıxış etməsini, ictimai təhlükəliliyi o qədər də yüksək olmayan bəzi əməllərə görə cinayət məsuliyyətinin nəzərdə tutulmasının məqsədəmüvafiq olmadığını, bu sahədə dünya təcrübəsini, keçirdiyimiz sosioloji sorğuların nəticələrini, habelə ekspertlərin fikir və mövqelərinin ümumiləşdirilməsi və qiymətləndirilməsi nəticələrini nəzərə alaraq hesab edirik ki, təhqir (maddə 148), jurnalistlərini qanuni peşə fəaliyyətinə mane olma (maddə 163), müəlliflik hüquqlarını və əlaqəli hüquqları pozma (maddə 165), məlumat toplularından qeyri-qanuni istifadə (maddə 165-3), övladlığa götürmə sirrini yayma (maddə 175), əmlakı ehtiyatsızlıqdan məhv etmə və ya zədələmə (maddə 187), balıqları və başqa su heyvanlarını qanunsuz tutma (maddə 256), qanunsuz ov etmə (maddə 258), atmosferi (havanı) çirkləndirmə (maddə 215), məhkəməyə hörmətsizlik etmə (maddə 289) kimi əməllərə görə məsuliyyət nəzərdə tutan cinayət tərkibləri CM-dən çıxarılmalı, yəni bu əməllər dekriminallaşdırılmalı və onlara görə məsuliyyət İnzibati Xətalar Məcəlləsi ilə təsbit olunmalıdır.

Dissertasiya işinin **altıncı fəsli «Azərbaycanın böyük şəhərlərində cinayətkarlığın kriminoloji xarakteristikası»** adlanır və üç paraqrafdan ibarətdir. Bu fəsildə şəhər cinayətkarlığı regional kriminoloji tədqiqatın obyekti kimi nəzərdən keçirilmiş, ölkənin Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və Şir-

van kimi şəhərlərində cinayətkarlığın vəziyyəti, strukturu və dinamikası təhlil edilmişdir. Tədqiqat işinin bu fəslində həmçinin qloballaşma şəraitində urbanizasiya və miqrasiya prosesləri və onların şəhər cinayətkarlığının kəmiyyət-keyfiyyət parametrlərinə təsiri təhlil edilərək qiymətləndirilmişdir.

**Bu fəslin «Şəhər cinayətkarlığı – regional kriminoloji analizin obyekti kimi» birinci paraqrafında** göstərilir ki, regional istiqamətli kriminoloji tədqiqatlarda şəhər cinayətkarlığının kriminoloji analizinə, bu inzibati ərazi vahidlərində cinayətkarlığın vəziyyəti, struktur və dinamikasının, səbəbiyyət kompleksinin təhlilinə xüsusi önəm verilməlidir. Şəhər cinayətkarlığı regional yönümlü kompleks tədqiqatların obyektinə çevrilməli, bu inzibati-ərazi vahidində cinayətkarlıqla mübarizənin elmi əsaslı konsepsiyası, strategiya və taktikası, şəhər cinayətkarlığının profilaktikasına istiqamətlənən fəaliyyət planları işlənib hazırlanmalıdır. Şəhər cinayətkarlığının kriminoloji tədqiqinin əsas vəzifələri sırasında həmçinin göstərilə bilər: 1) bu və ya digər şəhərdə cinayətkarlığı səciyyələndirən xarakterik cəhətlərin, cinayətkarlığı determinə edən kriminogen və antikriminogen amillər məcmusunun müəyyən edilməsi; 2) bütövlükdə şəhər və onun ayrı-ayrı ərazi vahidləri səviyyəsində cinayətkarlıqla mübarizə üzrə elmi, təcrübi və maddi-texniki potensialın qiymətləndirilməsi; 3) cinayətkarlığın səviyyəsinin və intensivliyinin yüksək, orta və aşağı olduğu şəhərlərin müəyyən edilməsi və bu əsasda hər bir şəhər üzrə kriminoloji xəritənin işlənib hazırlanması; 4) cinayətkarlıqla mübarizə sahəsində ayrı-ayrı şəhərlərdə mövcud vəziyyətin, kriminoloji mənzərənin müəyyən edilməsi; 5) cinayətkarlıq kimi mürəkkəb və çoxaspektli sosial-hüquqi hadisənin ayrı-ayrı şəhərlər səviyyəsində modelləşdirilməsi və proqnozlaşdırılması.

Hesab edirik ki, Azərbaycanın Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və Şirvan kimi şəhərlərində cinayətkarlığın kəmiyyət-keyfiyyət parametrlərinin öyrənilməsi, kriminoloji baxımdan qiymətləndirilməsi, bu ərazi vahidlərində və onların ayrı-ayrı hissələrində təzahür edən cinayətkarlığın növləri, səbəbləri, xüsusiyyətləri, yeni inkişaf meylləri ilə bağlı kriminoloji tədqiqatlar aparılmalı və bu iş intensivləşdirilməlidir. Azərbaycanda şəhər cinayətkarlığının statistik-kriminoloji və informasiya-analitik analizinin, proqnozlaşdırılması və profilaktikasının elmi-nəzəri, təşkilati-texniki, metodiki və metodoloji ilkin şərtləri və əsasları işlənib hazırlanmalıdır.

**Fəslin ikinci paraqrafı «Azərbaycanın böyük şəhərlərində cinayətkarlığın vəziyyəti, strukturu və dinamikası» adlanır.** Bu fəsildə qeyd olunur ki, regional istiqamətli kriminoloji tədqiqatlarda şəhər cinayətkarlığının kriminoloji analizi, bu inzibati ərazi vahidlərində cinayətkarlığın vəziyyəti, struktur və dinamikasının sistemli təhlili böyük əhəmiyyət kəsb edir. Belə ki, adətən məhz böyük şəhərlərdə qeydə alınan cinayətlərin ölkə üzrə cinayətkarlığın strukturunda xüsusi çəkisi daha yüksək olar. Belə bir meyl Azərbaycan üçün də

xarakterikdir. Bunu ölkənin Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan kimi şəhərlərində cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasının təhlili əyani şəkildə göstərir. 2009-cu ildə ölkənin paytaxtında cinayətlərin səviyyəsi, yəni cinayətkarlıq əmsalı (əhalinin 100 min nəfərinə düşən cinayətlərin sayı) 538, 2015-ci ildə isə 570 olmuşdur. 2009-cu ildə Bakının Səbail (861), Nərimanov (744), Nəsimi və Nizami (552) rayonlarında cinayətkarlıq əmsalı Bakı üzrə uyğun göstəricilərdən əhəmiyyətli dərəcədə yüksək olmuşdur. Eyni zamanda paytaxtın Xəzər (459), Qaradağ (481), Binəqədi (468), Sabunçu (476), Yasamal (511), Suraxanı (408) və Xətai (423) rayonlarında cinayətkarlıq əmsalı Bakı üzrə cinayətkarlıq səviyyəsində aşağı olmuşdur. 2009-cu ildə paytaxtın ən kriminogen inzibati rayonu Səbail olmuşdur. 2009-cu ildə ən çox cinayət hadisəsi isə Nəsimi (1536), ən az cinayət isə Qaradağ (522) rayonunda qeydə alınmışdır. 2015-ci ildə də Bakı və onun inzibati rayonlarında cinayətkarlıq səviyyəsi ümumrespublika səviyyəsindən yüksək olmuşdur. Belə ki, bu ildə Bakının inzibati rayonlarından ən yüksək cinayətkarlıq əmsalı Səbail (727,4) və Qaradağ (727) rayonlarında, ən aşağı cinayətkarlıq əmsalı isə Pirallahı (295), Suraxanı (409) və Sabunçu (420) rayonları üçün xarakterikdir. Bu ildə qeydə alınan cinayətlərin sayına gəldikdə isə ən çox cinayət Nəsimi (1448), Yasamal (1470) və Xətai (1554) rayonlarında ən az cinayət isə Pirallahı (59) və Səbail (731) rayonlarında qeydə alınmışdır (bax cədvəl 4).

Cədvəl 4

Bakı şəhəri və onun rayonlarında 2009-2015-ci illər üzrə qeydə alınmış cinayət və cinayətkarlıq əmsalı (əhalinin 100 000 nəfərinə düşən cinayətlərin sayı)

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| *Azərbaycan üzrə* | 22830<br>254, | 23010<br>252,0 | 24263<br>263,0 | 21897<br>234,0 | 22381<br>236,0 | 24607<br>256,0 | 26916<br>277,0 |
| *O cümlədən:* | | | | | | | |
| *Bakı üzrə* | 11108<br>538,0 | 11096<br>530,0 | 11724<br>552,0 | 10018<br>466,0 | 10984<br>503,0 | 12288<br>557,0 | 12693<br>570,0 |
| *O cümlədən* | | | | | | | |
| *Xəzər* | 782<br>459,0 | 782<br>454,0 | 939<br>538,0 | 828<br>523,0 | 815<br>509,0 | 808<br>504,0 | 880<br>543,0 |
| *Səbail* | 784<br>861,0 | 734<br>794,0 | 724<br>772,0 | 565<br>597,0 | 599<br>623,0 | 700<br>699,0 | 731<br>727,4 |
| *Qaradağ* | 522<br>481,0 | 635<br>575,0 | 639<br>567,0 | 553<br>483,0 | 545<br>467,0 | 755<br>637,0 | 876<br>727 |
| *Binəqədi* | 1127<br>468,0 | 1149<br>471,0 | 1216<br>491,0 | 1152<br>459,0 | 1414<br>554,0 | 1504<br>583,0 | 1373<br>527,0 |
| *Sabunçu* | 1060 | 1127 | 1133 | 1002 | 1042 | 1148 | 1004 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 476,0 | 500,0 | 496,0 | 433,0 | 445,0 | 485,0 | 420,0 |
| *Nərimanov* | 1211<br>744,0 | 1048<br>634,0 | 1025<br>611,0 | 926<br>546,0 | 907<br>528,0 | 1080<br>624,0 | 1133<br>648,0 |
| *Nəsimi* | 1536<br>733,0 | 1316<br>622,0 | 1456<br>683,0 | 1314<br>609,0 | 1227<br>565,0 | 1483<br>682,0 | 1448<br>663,0 |
| *Nizami* | 990<br>55,2 | 1001<br>55,0 | 993<br>53,7 | 781<br>41,5 | 1059<br>55,0 | 1202<br>62,0 | 1234<br>63,1 |
| *Yasamal* | 1194<br>511,0 | 1498<br>635,0 | 1524<br>640,0 | 1290<br>537,0 | 1278<br>527,0 | 1325<br>544,0 | 1470<br>600,0 |
| *Suraxanı* | 811<br>408,0 | 818<br>406,0 | 878<br>429,0 | 672<br>325,0 | 688<br>321,0 | 849<br>400,0 | 878<br>409,0 |
| *Xətai* | 1050<br>423,0 | 954<br>378,0 | 1155<br>449,0 | 910<br>347,0 | 1340<br>501,0 | 1344<br>496,0 | 1554<br>564,0 |
| *Pirallahı* | - | - | - | - | 29<br>158,0 | 54<br>271,0 | 59<br>295,0 |

Statistik məlumatların müqayisəli-kriminoloji təhlili, 2009-2015-ci illər üzrə hesablanmış orta cinayətkarlıq əmsalı əsasında söyləyə bilərik ki, Bakı şəhərinin ən kriminogen (cinayətkarlıq səviyyəsi daha yüksək olan) rayonları Səbail (orta cinayətkarlıq əmsalı 727.7), Nəsimi (651), Nərimanov (619), kriminogenlik səviyyəsi nisbətən aşağı olan rayonları isə Suraxanı (385), Sabunçu (465), Xəzər (504.3), Binəqədi (507,6) və Xətaidir (451.1).

Qeyd edək ki, Xəzər, Binəqədi, Sabunçu, Suraxanı, Xətai rayonlarında orta cinayətkarlıq əmsalı Bakı üzrə uyğun göstəricidən (530.8) aşağı olmuşdur.

2009-2015-ci illər üzrə cinayətlərin orta illik sayını əks etdirən statistik rəqəmlərin analizi əsasında bu parametrə nəzərən bir qədər fərqli vəziyyətin müşahidə olunduğunu qeyd edə bilərik. Belə ki, Bakının cinayətlərin daha çox qeydə alındığı rayonlar Nəsimi (orta illik 1397 cinayət), Yasamal (1368), Binəqədi (1276), Xətai (1186) rayonları, ən az cinayət hadisəsinin qeydə alındığı rayonlar isə Qaradağ (646), Səbail (691) və Xəzər (833) rayonları olmuşdur. Statistik məlumatlar son bir neçə ildə Bakı şəhərində əmək qabi-liyyəti işləməyən və oxumayan şəxslər tərəfindən törədilən cinayətlərin, alkoqol sərxoşluğu vəziyyətində baş verən kriminal əməllərin, qrup halında törədilən cinayətlərin, əcnəbilər, qadınlar tərəfindən törədilən cinayətlərin sayında artımın müşahidə olunduğunu göstərir. 2006-cı ildə Bakı şəhərində qeydə alınan cinayətlərin strukturunda ən böyük xüsusi çəki oğurluq (11,4%), qanunsuz olaraq narkotik vasitələri və psixotrop maddələri hazırlama, istehsal etmə, əldə etmə, saxlama və s. (13%), yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma (9,2%), dələduzluq (8,8%), sağlamlığa yüngül zərər vurma (7,5%) və xuliqanlıq (5,9%) kimi əməllərin «payına» düşmüşdür. 2015-ci ildə Bakı şəhəri üzrə cinayətlərin strukturunda isə oğurluq (28,8%), dələduzluq (17,4%), vergi ödəməkdən yayınmaq (5,9%) kimi əməllərin xüsusi çəkisi uyğun olaraq 2.5, 2 və 19 dəfə artmış, xuliqanlıq, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı

qaydalarını pozma, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin xüsusi çəkisi isə azalmışdır. 2009-2015-ci illər üzrə respublikanın şəhərlərində orta illik cinayətkarlıq əmsalı (yəni son 7 il üzrə çıxarılmış cinayətkarlıq əmsalının orta qiyməti) Bakıda 536, Gəncədə 196, Sumqayıtda 297, Mingəçevirdə 228, Şirvanda 275 olmuşdur. Azərbaycanda isə orta cinayətkarlıq səviyyəsi 253 olmuşdur. Beləliklə, cinayətkarlıq səviyyəsi Bakı, Sumqayıt və Şirvanda daha yüksəkdir. Şəhərlər arasında ən aşağı cinayətkarlıq əmsalı Gəncə, daha sonra isə Mingəçevir şəhərləri üçün xarakterikdir. Gəncə şəhərinin əhalisi Şirvandan 4 dəfə çox olmasına baxmayaraq, Şirvanda cinayətkarlıq əmsalı Gəncədən daha yüksəkdir. Eynilə də Gəncə və Sumqayıt şəhərlərinin əhalisi təxminən eyni olmalarına baxmayaraq (2015-ci ildə Gəncədə 330,1 min, Sumqayıtda isə 336,2 min əhali qeydə alınmışdır) Sumqayıtda cinayətkarlıq səviyyəsi Gəncədən 1,5 dəfə yüksək olmuşdur (cədvəl 5).

Ayrı-ayrı cinayət növləri üzrə cinayətkarlıq əmsalına görə də şəhərlər arasında əhəmiyyətli fərqlər var. Belə ki, orta qəsdən adam öldürmə əmsalına görə Bakı (4,6) və Gəncə (4,4) «öndədir». Sonrakı yerlər Şirvan və Sumqayıt şəhərlərinə məxsusdur. Göründüyü kimi bu növ cinayətlərin səviyyəsi Gəncədə Sumqayıtdan xeyli yüksəkdir. Oxşar vəziyyət qəsdən sağlamlığa ağır zərər vurma əməllərinin səviyyəsində də müşahidə edilir. Belə ki, 2009-2015-ci illər üzrə bu növ cinayətlərə aidiyyətdə orta cinayətkarlıq əmsalı Bakıda (7,6) və Gəncədə (6,8) daha yüksəkdir. Bu növ cinayətlərin səviyyəsi Şirvanda 5,1, Sumqayıtda isə 4 olmuşdur.

Cədvəl 5

Azərbaycanın böyük şəhərlərində 2009-2015-ci illər üzrə qeydə alınmış cinayətlər və cinayətkarlıq əmsalı (əhalinin 100 000 nəfərinə düşən cinayətlərin sayı)

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| *Azərbaycan üzrə:* | 22830<br>254,0 | 23010<br>252,0 | 24263<br>263,0 | 21897<br>234,0 | 22381<br>236,0 | 24607<br>256,0 | 26916<br>277,0 |
| *O cümlədən:* | | | | | | | |
| *Bakı* | 11108<br>538,0 | 11096<br>530,0 | 11724<br>552,0 | 10018<br>466,0 | 10984<br>503,0 | 12288<br>597,0 | 12693<br>570,0 |
| *Gəncə* | 693<br>222,0 | 599<br>189,0 | 597<br>186,0 | 597<br>185,0 | 569<br>176,0 | 642<br>195,0 | 739<br>224,0 |
| *Sumqayıt* | 960<br>308,0 | 1033<br>328,0 | 1051<br>330,0 | 935<br>287,0 | 918<br>279,0 | 796<br>239,0 | 1054<br>313,0 |
| *Mingəçevir* | 153<br>158,0 | 194<br>198,0 | 236<br>238,0 | 183<br>183,0 | 229<br>228,0 | 294<br>289,0 | 309<br>302,0 |
| *Şirvan* | 323<br>415,0 | 349<br>443,0 | 289<br>361,0 | 232<br>287,0 | 223<br>273,0 | 214<br>258,0 | 299<br>356,0 |

Beləliklə, qəsdən adam öldürmə və sağlamlığa ağır zərər vurma əməllərinin səviyyəsinə görə Bakı və Gəncə daha yüksək kriminogenliklə səciyyələnir. 2009-2015-ci illər üzrə oğurluq cinayətləri ilə bağlı orta cinayətkarlıq əmsalını hesablasaq görərik ki, oğurluq səviyyəsinin orta illik göstəricisi Azərbaycanda 51,6, Bakıda 139,7, Gəncədə 29,9, Sumqayıtda 48,7, Mingəçevirdə 39,3, Şirvanda isə 42,4 olmuşdur. Beləliklə, oğurluq səviyyəsinin görə ölkənin ən kriminogen bölgəsi Bakıdır. Burada oğurluq səviyyəsi Azərbaycan üzrə ümumi səviyyədən 3,7 dəfə, Gəncədən 4,6 dəfə yüksəkdir. Kriminogenlik nöqteyi-nəzərdən ikinci yerdə Sumqayıt, üçüncü yerdə isə Şirvan durur. Oğurluq səviyyəsi digər şəhərlərlə müqayisədə Gəncədə xeyli aşağıdır.

2009 və 2015-ci illərdə dələduzluq səviyyəsi uyğun olaraq Bakıda 40.6 və 99.5, Gəncədə 14.6 və 36.6, Sumqayıtda 31.1 və 28.8, Mingəçevirdə 31 və 23.4, Şirvanda isə 24.4 və 39.3 olmuşdur. Göründüyü kimi, 2009-cu illə müqayisədə 2015-ci ildə yalnız Sumqayıtda dələduzluq səviyyəsi azalmış, digər şəhərlərdə, həmçinin Azərbaycanda əhəmiyyətli şəkildə artmışdır. Məsələn, Bakıda 2,5 dəfə, Gəncədə 2,5 dəfə, Mingəçevirdə 7 dəfə. 2009-2015-ci illər üzrə bu növ cinayətlərlə bağlı orta dələduzluq əmsalı Azərbaycanda 21,9, Bakıda 58,6, Gəncədə 22,7, Sumqayıtda 22,8, Mingəçevirdə 14,3, Şirvanda 13,4 təşkil etmişdir. Beləliklə əvvəlki kimi Bakı dələduzluq baxımından ən kriminogen şəhər olmuşdur. Lakin bu cinayətlərin səviyyəsinə görə sonrakı yerlər Gəncə və Sumqayıta məxsusdur. Dələduzluq səviyyəsinin ən aşağı göstəricisi Şirvanda müşahidə olunmuşdur. 2009-2015-ci illər üzrə hesablanmış orta soyğunçuluq əmsalı Azərbaycanda 3.2, Bakıda 10.4, Gəncədə 2.3, Sumqayıtda 5.9, Mingəçevirdə 2.1, Şirvanda isə 2.8 təşkil etmişdir. Göründüyü kimi, orta soyğunçuluq əmsalı Bakı və Sumqayıtda son illərdə aşağı düşməsinə baxmayaraq ən yüksək olaraq qalmış və Azərbaycan səviyyəsindən əhəmiyyətli dərəcədə yüksək olmuşdur. Beləliklə, soyğunçuluq əməllərinin səviyyəsinə görə ən kriminogen şəhərlər Bakı və Sumqayıtdır.

Vergi ödəməkdən yayınma əməllərinin səviyyəsini göstərən məlumatları təhlil etsək görərik ki, 2009-cu illə müqayisədə, 2015-ci ildə vergi ödəməkdən yayınma ilə bağlı kriminal əməllər üzrə cinayətkarlıq əmsalı Azərbaycanda 6 dəfə, Bakıda 3.5 dəfə, Gəncədə 6.4 dəfə, Sumqayıtda 8.1 dəfə, Mingəçevirdə 41 dəfə, Şirvanda 24.7 dəfə artım baş vermişdir. Bu illər üzrə vergi ödəməkdən yayınma əməlləri üzrə orta cinayətkarlıq əmsalı Azərbaycanda 8.6, Bakıda 17.1, Gəncədə 8.1, Sumqayıtda 16.3, Mingəçevirdə 32.1, Şirvanda isə 18 olmuşdur. Beləliklə, yalnız Gəncədə bu növ cinayətlərin səviyyəsi ümumrespublika səviyyəsindən aşağıdır. Vergi ödəməkdən yayınma səviyyəsinə görə isə ən kriminogen şəhərlər Mingəçevir və Şirvandır.

Azərbaycanın şəhərlərində xuliqanlıq cinayətləri ilə bağlı mövcud kriminogen durumun təhlili əsasında aşağıdakıları xüsusi olaraq qeyd edə bilərik:

2009-2015-ci illər üzrə çıxarılmış, yəni hesablanmış orta xuliqanlıq əmsalı Azərbaycanda 13.2, Bakıda 26.1, Gəncədə 10.3, Sumqayıtda 12.1, Mingəçevirdə 16, Şirvanda isə 25.7 olmuşdur. Beləliklə, xuliqanlıq səviyyəsinə görə ən kriminogen şəhərlər Bakı və Şirvandır. Qanunsuz olaraq narkotik vasitələri və psixotrop maddələri hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma cinayətlərinin səviyyəsi isə aşağıdakı meyllərlə səciyyələnmişdir. 2009 və 2015-ci illərdə bu növ cinayətkarlıq əmsalı Azərbaycan 33.6 və 30.4, Bakıda 71.1 və 55.1, Gəncədə 29.6 və 16.4, Sumqayıtda 50.4 və 47.6, Mingəçevirdə 32 və 38.1, Şirvanda isə 91.2 və 60.7 olmuşdur. Beləliklə, istər 2009, istərsə də 2015-ci ildə cinayətkarlıq əmsalı Şirvanda daha yüksək olmuşdur. Bu illər ərzində cinayətkarlıq səviyyəsi Azərbaycanda, Bakıda, Gəncədə, Sumqayıtda və Şirvanda aşağı düşmüş, Mingəçevirdə isə yüksəlmişdir. 2009-2015-ci illəri əhatə edən 7 illik dövr üzrə bu növ cinayətlərlə bağlı orta cinayətkarlıq əmsalı Azərbaycanda 29.9, Bakıda 51.4, Gəncədə 23.8, Sumqayıtda 39.6, Mingəçevirdə 31.7, Şirvanda isə 81.6 (respublika üzrə uyğun göstəricidən 2,7 dəfə çox) olmuşdur. Bir sözlə bu növ cinayətlərin səviyyəsinə görə ən kriminogen şəhər Şirvandır. Sonrakı yerlər isə Bakı və Sumqayıta məxsusdur. Respublikanın şəhərlərində 2009 və 2015-ci illərdə yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma əməllərinin vəziyyətini (sayını), dinamikasını və səviyyəsini əks etdirən statistik göstəricilərin kriminoloji təhlili göstərir ki, 2009 və 2015-ci illərdə bu növ cinayətkarlıq əmsalı Azərbaycanda 12.8 və 14.4, Bakıda 33.3 və 25.4, Gəncədə 10.8 və 13.6, Sumqayıtda 17.9 və 21.4, Mingəçevirdə 19.6 və 2.9, Şirvanda 20.5 və 10.7 olmuşdur. Göründüyü kimi, 2009-cu illə müqayisədə 2015-ci ildə bu növ cinayətkarlıq səviyyəsi Bakıda, Mingəçevirdə (6 dəfədən çox), Şirvanda (təxminən 2 dəfə) aşağı düşmüş, Gəncə və Sumqayıtda isə yüksəlmişdir. 2009-cu ildə yalnız Gəncədə bu növ cinayətlərin səviyyəsi ümumrespublika səviyyəsindən aşağı olmuş, bu ildə ən yüksək cinayətkarlıq səviyyəsi isə Bakıda, daha sonra isə Şirvan və Mingəçevirdə qeydə alınmışdır. 2015-ci ildə Mingəçevir, Şirvan və Gəncədə bu cinayətlərin səviyyəsi ümumrespublika səviyyəsindən aşağı (məsələn, Mingəçevirdə 4 dəfədən çox), Bakı və Sumqayıtda isə yüksək olmuşdur.

2009-2015-ci illəri əhatə edən 7 illik dövrdə bu əməllər üzrə orta cinayətkarlıq əmsalı Azərbaycanda 17,9, Bakıda 33.3, Gəncədə 13, Sumqayıtda 21.2, Mingəçevirdə 13.8, Şirvanda isə 17.3 təşkil etmişdir. Beləliklə, bu cinayətlərin səviyyəsinə görə ən kriminogen şəhərlər Bakı və Sumqayıt, nisbətən təhlükəsiz şəhər isə Gəncədir. 2006-2015-ci illəri əhatə edən 10 illik dövrdə ölkəmizin böyük şəhərlərində cinayətlərin vəziyyəti və dinamikasını səciyyələndirən statistik rəqəmlər şəhər cinayətkarlığı üçün səciyyəvi xarakter daşıyan bir sıra meylləri üzə çıxarmağa imkan verib. Qeyd edək ki, bu illər ərzində ölkənin bütün şəhərlərində cinayətlərin sayında artım müşahidə olunmuşdur.

Belə ki, 2006-cı illə müqayisədə 2009-cu ildə cinayətlərin ümumi sayı Bakıda 47.6%, Gəncədə 74.7%, Sumqayıtda 23.8%, Mingəçevirdə 21.6%, Şirvanda isə 24.1% artım qeydə alınmışdır. Azərbaycanda qeydə alınmış cinayətlərin strukturunda xüsusi çəkiyə gəldikdə isə, göstərə bilərik ki, 2006-cı ildə Bakı şəhərində törədilən cinayətlərin Azərbaycan üzrə cinayətkarlığın sayında xüsusi çəkisi 45.1%, Gəncənin 2.22%, Sumqayıtın 4.47%, Mingəçevirin 1.33%, Şirvanın isə 1.26% olmuşdur. Göründüyü kimi, respublikada qeydə alınan cinayətlərin strukturunda Sumqayıtın xüsusi çəkisi Gəncədən 2 dəfə çoxdur.

2015-ci ildə cinayətkarlığın strukturunda Bakının xüsusi çəkisi 47.1%, Gəncənin 2.74%, Sumqayıtın 3.92%, Mingəçevirin 1.15%, Şirvanın 1.11% olmuşdur. Göründüyü kimi, 2006-cı illə müqayisədə 2015-ci ildə cinayətlərin ümumi sayında Bakının xüsusi çəkisi artmış, Gəncə, Sumqayıt, Mingəçevir və Şirvanın xüsusi çəkiləri isə azalmışdır.

Dissertasiya işinin **«Qloballaşan dünyada urbanizasiya və miqrasiya prosesləri, onların şəhər cinayətkarlığının kəmiyyət-keyfiyyət parametrlərinə təsiri» adlanan üçüncü paraqrafında** urbanizasiya və miqrasiya kimi sosial-demoqrafik proseslərin cinayətkarlığa, xüsusən də şəhər cinayətkarlığının vəziyyəti, strukturu və dinamikasına təsiri öyrənilmişdir. Urbanizasiya cinayətkarlığa həm neqativ, həm də pozitiv təsir göstərir. Urbanizasiyanın neqativ amillərinə aid edilə bilər: kəskin iqtisadi stratifikasiya; iqtisadi qeyri-sabitlik və işsizlik; bürokratizm və korrupsiya təzahürləri; həyat şəraitinin pisləşməsinə gətirən əhalinin yüksək sıxlığı; əhalinin ümumi və rəqqasi miqrasiyası; kadr axını; psixoloji yüklənmənin yüksək səviyyəsi; istehsalat və nəqliyyat travmatizmi; həyat tərzinin anonimliyi və s. Pozitiv amillər sırasında isə aşağıdakılar göstərilə bilər: şəhər əhalisinin sosial-professional strukturunda yüksək ixtisaslı və təhsilli, qanuna riayət edən əhali qrupunun üstünlük təşkil etməsi; hüquq-mühafizə orqanlarının qüvvə və vasitələrinin cəmləşməsinin yüksək dərəcəsi; böyük inzibati-mədəni mərkəzlərin müsbət təsiri.

Müxtəlif ərazi vahidlərində gedən urbanizasiya və miqrasiya prosesləri ilə cinayətkarlığın kəmiyyət-keyfiyyət xarakteristikaları arasında birbaşa səbəb və nəticə əlaqələrinin olduğunu da hökm etmək düzgün olmazdı. Bu əlaqə və asılılıqlar bir sıra digər hüquqi, sosial-iqtisadi, sosial-psixoloji, təşkilati-texniki və digər amillərlə dolayı surətdə bağlıdır.

Dissertasiyanın **nəticə** hissəsində monoqrafik tədqiqata yekun vurulur, kriminologiya elminin və cinayətkarlıqla mübarizə təcrübəsinin zənginləşdirilməsinə xidmət edən yeni elmi-nəzəri müddəalar, cinayətkarlığın kriminoloji tədqiqi, proqnozlaşdırılması və qarşısının alınmasına istiqamətlənən elmi və praktiki yönümlü tövsiyələr, cinayət qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflər ümumiləşdirilmiş şəkildə ifadə olunmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

**Monoqrafiya və dərs vəsaiti:**

1. Regional cinayətkarlığın kriminoloji analizi və proqnozlaşdırılması (elmi-nəzəri və praktiki aspektlər). Bakı, 2014, «MBM» 112 s.
2. Kriminologiya (Sual və cavablar). Dərs vəsaiti (həmmüəllifliklə) Polis Akademiyası. Bakı-2014. 220 s.

**Elmi məqalələr:**

3. Cinayətkarlığın regional tədqiqi məsələləri - Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri. Humanitar elmlər seriyası. «Odlar Yurdu» nəşriyyatı, № 34. Bakı -2012- s.113-117.
4. Regional cinayətkarlığın kriminoloji tədqiqinin məqsədi və vəzifələri, əsas istiqamətləri-Milli Aviasiya Akademiyası Elmi Məcmuələr. Cild 14. № 4. Bakı-2012- s. 72-77.
5. Azərbaycan Respublikasında cinayətkarlığın regional tədqiqinin bəzi problemləri. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzi. Elmi əsərlər məcmuəsi. № 58. Bakı-2013-s.104-108.
6. Cinayətkarlığın proqnozlaşdırılmasının aktual problemləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi analitik və praktik jurnal). №1 (29). 2012 - s.155-163.
7. Cinayətkarlığın regional tədqiqinin kriminoloji əsasları. AMEA-nın Məruzələri, № 2 (19). 2012- s.214-217.
8. Cinayətkarlığın regional tədqiqinin bəzi problemləri. Polis Akademiyasının Elmi Xəbərləri, № 3 (4). Bakı-2012- s. 59-64.
9. Научно-практическое значение и основные направления регионального криминологического анализа и предупреждения преступности. Журнал «Черные дыры», № 3. Москва-2013, s. 43-47.
10. Cinayətkarlığın regional tədqiqinin kriminoloji aspektləri. AMEA-nın Elmi Əsərləri. № 1 (20). Bakı-2013- s.164-169.
11. Regional cinayətkarlığın kriminoloji tədqiqinin əsas istiqamətləri. Polis Akademiyasının Elmi Xəbərləri, № 2 (7). Bakı-2013 - s. 37-41.
12. Cinayətkarlığın proqnozlaşdırılmasının nəzəri əsasları. Polis Akademiyası Elmi Xəbərlər, № 3 (8). Bakı-2013- s.88-92.
13. Cinayətkarlığın proqnozlaşdırılmasının məqsəd və vəzifələri. Polis Akademiyasının Elmi Xəbərləri, № 4 (9). Bakı-2013 - s.59-64.
14. Regional cinayətkarlığın kriminoloji tədqiqinin əhəmiyyəti və predmeti haqqında. Polis Akademiyasının Elmi Xəbərləri, № 1 (10). Bakı-2014- s.28-33.

15. Azərbaycan Respublikasında regional cinayətkarlığın kriminoloji analizinin əhəmiyyəti, predmeti, obyekti, məqsəd və vəzifələri haqqında - Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə № 1(45). Bakı-2014- s.155-164.

16. Azərbaycanda şəhər cinayətkarlığının kriminoloji analizi, proqnozlaşdırılması və profilaktikasının bəzi məsələləri. Milli Aviasiya Akademiyası Elmi Məcmuələr. Cild 16, № 1. Bakı-2014- s.71-79.

17. Regional cinayətkarlığın qısamüddətli proqnozlaşdırılmasının metodiki əsasları. Polis Akademiyası Elmi Xəbərlər, № 4 (12).Bakı-2014-s.36-46.

18. Qloballaşma şəraitində regional cinayətkarlıqla mübarizə: problemlər və həlli yolları. Məhkəmə Ekspertizası kriminalistika və kriminologiyanın aktual məsələləri № 62. Bakı, 2014- s.21-32.

19. Some scientific-criminological and practical aspects of geo-criminological analysis of criminality. Pensee. Multidisciplinary Journal-№12. Paris, France. 2014- s.108-114.

20. Kriminologiyada cinayətkarlığın regional-coğrafi tədqiqi istiqamətinin yaranması və inkişafı. Milli Aviasiya Akademiyası Elmi Məcmuələr. Cild 16, № 4. Bakı-2014- s.80-91.

21. Qloballaşma şəraitində regional cinayətkarlıq: problemlər və həlli yolları. Polis Akademiyası Elmi Xəbərlər, № 2-3(11). Bakı-2014- s.42-46.

22. Şəhər cinayətkarlığı – regional kriminoloji analizin obyekti kimi- AMEA Elmi əsərlər jurnalı. № 1 (24). Bakı-2015- s.262-271.

23. Qloballaşan dünyada urbanizasiya və miqrasiya prosesləri, onların regional cinayətkarlığın kəmiyyət-keyfiyyət parametrlərinə təsiri. Polis Akademiyasının Elmi Xəbərləri, № 1-2(13). Bakı-2015- s.58-67.

24. География преступности как новое направления в криминологии: значение, становление и развитие. Международный научно-популярный журнал «Наука и жизнь Казахстана». № 5 (32). 2015- s.13-22.

25. Regional cinayətkarlığın qarşısının alınmasının kompleks proqramları: mahiyyəti, strukturu, əsas elementləri. Məhkəmə Ekspertizası kriminalistika və kriminologiyanın aktual məsələləri № 63, Bakı, 2015- s.15-25.

26. Azərbaycan şəhərlərində cinayətkarlığın bəzi kriminoloji xüsusiyyətləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi analitik və praktik jurnal). №1 (41). 2015- s.71-79.

27. Regional cinayətkarlığın qarşısının alınmasının (profilaktikasının) əsas istiqamətləri və xüsusiyyətləri. BDU-nun sosial, siyasi elmlər seriyası № 4. 2015- s.15-31.

28. Kriminoloji bilim dalında suçluluğun "coğrafi" bölgesel tahlili yönünün ortaya çıkması ve gelişimi. Turkish Journal of Security Studies Güvenlik Çalışmaları Dergisi № 2, 2016- s.117-131.

29. Сущность, структура и основные элементы комплексных программ профилактики региональной преступности. Научный вестник Лвовского государственного университета внутренних дел. Выпуск, 2, 2016-s 391-402.

30. Некоторые особенности профилактики региональной преступности. Российский следователь № 15, 2016. s 20-22.

31. Некоторые криминологические аспекты городской преступности в Азербайджанской Республике. Труды Академии Управления МВД России № 3 (39), 2016. s. 72-75.

32. Kriminoloji tədqiqatların əsas obyektlərindən biri kimi regional cinayətkarlığın öyrənilməsinin əhəmiyyəti və nəzəri aspektləri. Polis Akademiyasının Elmi Xəbərləri, №1-2 (15). Bakı-2016.

33. Regional cinayətkarlığın öyrənilməsi baxımından sosial-hüquqi hadisə kimi cinayətkarlığın səbəbiyyət kompleksinin məzmunu. Polis Akademiyasının Elmi Xəbərləri, №3-4 (16). Bakı-2016. S.6-11.

**Elmi-praktik konfrans məruzələri:**

34. Regional cinayətkarlığın kriminoloji analizi və proqnozlaşdırılması (elmi-nəzəri və praktiki aspektlər) - Polis Akademiyası. Bakı-2014- s.1-111/konfrans materiallar.

35. Cinayətkarlığın regional kriminoloji tədqiqinin bəzi aspektləri- «Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» Beynəlxalq elmi-praktik konfrans. Bakı-2014- s.11-18.

36. Qloballaşma şəraitində regional cinayətkarlıq: problemlər və həlli yolları- «Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» II Beynəlxalq elmi-praktik konfrans. Bakı-2015- s.13-25.

37. Научно-практическое значение и актуальные проблемы криминологического анализа региональной преступности- «Борьба с преступностью: теория и практика» Тезисы докладов III Международной научно-практической конференции (Могилев, 20 март 2015 г.) Могилев, 2015- s.6-9.

38. Azərbaycan Respublikasında regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri - «Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» III Beynəlxalq elmi-praktik konfrans - s.14-23.

# РЕЗЮМЕ

Диссертационная работа Алиева Назима Талат оглы по специальности 56.11.01 - «Уголовное право и криминология; уголовно-исполнительное право» на соискание учёной степени доктора юридических наук на тему «Проблемы исследования, прогнозирования и профилактики региональной преступности в Азербайджанской Республике» является самостоятельным, творческим и завершённым исследовательским трудом, отражает в себе новые научные положения и имеет существенное значение в исследовании региональной преступности, прогнозировании и анализе актуальных проблем профилактики преступности. Диссертация состоит из введения, разделов, заключения и списка использованной литературы, сформированных с учетом комплексного сравнительно-криминологического и статистико-криминологического исследования территориально-географических особенностей преступности, его прогнозирования и профилактики. Во введении обоснована актуальность темы исследования, степень ее разработанности, научная новизна, новые научные положения, представленные на защиту, указаны цель и задачи, теоретическое и практическое значение исследовательской работы. В первой главе под названием «Цели, задачи и значение регионально-криминологического исследования преступности в Азербайджане» комплексно и всесторонне изучены возникновение и развитие направлений регионального исследования преступности, современное положение криминологического исследования региональной преступности в Азербайджане, предмет, объект, цели и задачи криминологического анализа региональной преступности. Во второй главе диссертационного исследования под названием «Сравнительно-криминологический анализ основных количественных и качественных характеристик региональной преступности» проанализировано современное положение преступности в мире и его отдельных регионах в условиях глобализации, выявлены существующие тенденции и закономерности. В третьей главе диссертации под названием «Комплекс причин и условий, обстоятельств, порождающих региональную преступность» исследован научно-теоретический взгляд на комплекс причин и условий, а также обстоятельств, детерминирующих преступность, определён комплекс причин, порождающих преступность в экономических районах Азербайджана. В четвертой главе диссертации «Научно-теоретические, методологические и методические основы прогнозирования региональной преступности» указано значение прогнозирования региональной преступности, построения региональных криминологических прогнозов, определены цели и задачи регионального криминологического прогнозирования. В пятой главе под названием «Концептуальные основы профилактики преступности в регионах Азербайджана» рассмотрены основные направления и особенности пресечения региональной преступности, определены структура и основные элементы комплексных

программ по профилактике региональной преступности, раскрыто их значение. В шестой главе под названием «Криминологическая характеристика преступности в крупных городах Азербайджана» городская преступность рассмотрена как объект регионального криминологического исследования, проанализированы состояние, структура и динамика преступности в таких городах, как Баку, Гянджа, Сумгаит, Мингячевир и Ширван. В заключительной части диссертации отмечены существенные предложения и выводы, полученные в связи с исследованием, которые могут быть использованы в законотворческой деятельности, в разработке управленческих актов, регулирующих систему предупреждения и профилактики региональной преступности, а также специальных программ, концепций, национальных планов и стратегий деятельности в области борьбы с преступностью.

## SUMMARY

The dissertation of Aliyev Nazim Talat oglu on specialty 56.11.01 – "Criminal law and criminology; criminal-executive law" for the getting degree of doctor of juridical sciences on the topic "The problems of research, prediction and suppression of regional crime in the Republic of Azerbaijan" is an independent, creative and completed research work, it reflects completely new scientific provisions and is of significant importance in the study of regional crime, forecasting and analysis of actual problems of crime suppression. The thesis consists of the introduction, subsections, conclusion and list of used literature, formed taking into account the complex comparative-criminological and statistical-criminological research of geographic features of crime, its prediction and prevention.In the introduction is determined the urgency of a theme of research, its degree of exploration, scientific innovation, new scientific provisions submitted for protection, given the purpose and objectives, theoretical and practical importance of research. The emergence and development of the directions of regional crime research, the current status of the criminological study of regional crime in Azerbaijan, the subject, object, goals and objectives of the criminological analysis of regional crime were comprehensively studied in the first chapter entitled "The goal and objectives of the problem and the significance of the regional criminological investigation of crime in Azerbaijan". In the second chapter of the dissertation research entitled "Comparative-criminological analysis of the main quantitative and qualitative characteristics of regional crime", the modern situation of criminality in the world and its separate regions was analyzed in the conditions of globalization, existing tendencies and patterns were revealed. In the third chapter of the thesis, entitled "Complex of causes and conditions, the circumstances of generating regional crime", the scientific and theoretical view on a set of causes and conditions, as well as the circumstances determining criminality, determines the set of causes of crime in economic regions of Azerbaijan. In the fourth chapter of the thesis "Scientific-theoretical, methodological and methodological foundations of regional crime prediction", the significance of regional crime prediction, the construction of regional criminological forecasts, the goals and objectives of regional criminological forecasting are defined.

The fifth chapter, entitled "Conceptual bases for crime prevention in the regions of Azerbaijan", examines the main directions and peculiarities of suppression of regional criminality. The structure and bases of the elements of comprehensive programs for the prevention of regional crime have been revealed. In the sixth chapter, entitled "Criminological characteristics of crime in large cities of Azerbaijan", city crime is examined as the object of regional criminological research, analyzed the state, structure and dynamics of crime in such cities as Baku, Ganja, Sumgait, Mingachevir and Shirvan. In the final part of the dissertation, significant proposals and conclusions received in connection with the study were noted that can be used in lawmaking, in the development of administrative acts regulating the system of prevention and prevention of regional crime, as well as special programs, concepts, national plans and strategies for action.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**Назим Талат оглы Алиев**

# Проблемы исследования, прогнозирования и профилактики региональной преступности в Азербайджанской Республике

**Специальность: 5611.01 – Уголовное право и криминология; уголовно-исполнительное право**

**АВТОРЕФЕРАТ**

**диссертации, представленной на соискание ученой степени доктора юридических наук**

**Баку - 2017**